Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 262 (7989) ÇƏRŞƏNBƏ, 21 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Yüksək etimad, səmərəli əməkdaşlıq, birmənalı dəstək

## İlham Əliyevlə Aleksandr Lukaşenkonun rəsmi və işgüzar səfərlərinin intensivliyi Azərbaycan-Belarus əlaqələrinin inkişaf dinamikasından xəbər verir

**Bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquq normalarına hörmət, başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipləri. Bütün bunlar müstəqil Azərbaycanın xarici siyasət strategiyasının prioritetləridir. Dünyanın bir çox dövlətləri ilə münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirən Azərbaycanın mühüm strateji tərəfdaşlarından biri də Prezident İlham Əliyevin noyabrın 19-da rəsmi səfərdə olduğu Belarusdur.**

### İlham Əliyevin Belarusa 8-ci səfəri

İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə yaradılsa da, münasibətlərin yeni inkişaf mərhələsi 2006-cı ildən başlanıb. Həmin il hər iki ölkədə səfirliklər açılıb.

Bu il isə diplomatik münasibətlərin 25 illiyi qeyd edilir və mövcud münasibətlərin bu səviyyəyə yüksəlməsinin əsl səbəbi iki ölkənin prezidentləri İlham Əliyevlə Aleksandr Lukaşenko arasında olan səmimi dostluq münasibətləridir. Bunu dövlət başçılarının qarşılıqlı rəsmi və işgüzar səfərləri, beynəlxalq təşkilatların iclaslarında, forumlarda təkbətək görüşləri bir daha təsdiqləyir.

Statistik göstəricilərə nəzər yetirsək görərik ki, İlham Əliyev 2006-cı ildən 2018-ci il, yəni, sonuncu səfər də daxil olmaqla 8 dəfə Belarusda səfərdə olub. Bunlardan 5-i rəsmi (2006, 2009, 2012, 2015 və 2018-ci illər), 3-ü isə (2006, 2013, 2014-cü illər) işgüzar səfərdir.

Aleksandr Lukaşenko isə ölkəmizdə 4 dəfə (2007, 2010, 2013 və 2016-cı illər) rəsmi, 1 dəfə (2015-ci il) işgüzar səfərdə olub.

Beynəlxalq təşkilatlar, eləcə də keçmiş postsovet ölkələrində keçirilən MDB Dövlət Başçıları Şurasının iclaslarını nəzərə almadan, 2006-cı ildən bu günə qədər, yəni, son 12 ildə liderlərin təkcə qarşılıqlı səfərlər zamanı 13 dəfə görüşdüklərini söyləyə bilərik.

Bu görüşlər əlbəttə ki, istər beynəlxalq səviyyədə, istərsə də ikitərəfli münasibətlərdə əməkdaşlığı getdikcə daha da möhkəmləndirib. Hər iki dövlət beynəlxalq təşkilatlarda, ən çətin məqamlarda belə bir-birinə dəstək olub.

### 2 saatdan artıq davam edən təkbətək görüş

Səfər çərçivəsində Azərbaycan və Belarus prezidentlərinin görüşünün protokol ilə nəzərdə tutulduğundan daha çox çəkməsi diqqətçəkən məqamlardan olub.

Belə ki, Prezident İlham Əliyevin Aleksandr Lukaşenko ilə görüşü protokola görə 45 dəqiqə nəzərdə tutulsada, dövlət başçılarının təkbətək görüşü 2 saatdan artıq davam etdi. Bu iki ölkənin prezidentləri arasında yüksək qarşılıqlı etimadın, ikitərəfli münasibətlərin məzmun və mahiyyətinin zənginliyinin bariz göstəricisidir.

Azərbaycan və Belarus arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində dövlət başçıları arasında səmimi dostluq, qarşılıqlı etimad və dialoq mühüm rol oynayır.

### İmzalanan yeni sazişlər münasibətləri daha da şaxələndirəcək

Dövlət başçılarının bütün rəsmi səfərləri zamanı iki ölkə arasında yeni sazişlər imzalanır. Son səfərdə imzalanan yeni 8 sazişlə Azərbaycanla Belarus arasındakı mühüm sənədlərin sayı 119-a çatdı.

*Ardı 2-ci səh.*

# Azərbaycan ilə Türkiyə arasında strateji işbirliyi gündən-günə möhkəmlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirdi. Prezident İlham Əliyev bildirdi ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlət başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

*Ardı 2-ci səh.*

# Vladimir SOLOVYOV: “Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirdi, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd etdi. Bu baxımdan, Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası KİV nümayəndələrinin mütəmadi qarşılıqlı səfərləri ictimaiyyətin ölkələrimizdə baş verən proseslər barədə daha çox məlumatlı olması işinə kömək edə bilər. Eyni zamanda, dövlət başçısı qeyd etdi ki, bu cür səfərlər ölkələrimiz arasında bu gün çox uğurla inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından da önəmlidir. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində Azərbaycanın və Rusiyanın dövlət başçılarının qarşılıqlı səfərləri və mütəmadi görüşlərinin xüsusi rol oynadığını qeyd etdi. Dövlət başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.



Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Prezident İlham Əliyevlə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, bu gün Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir. Qonaq Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirdi. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını dedi. Vladimir Solovyov bu baxımdan noyabrın 19-da Azərbaycan Mətbuat Şurası və Rusiya Federasiyası Jurnalistlər İttifaqı arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun əhəmiyyətini vurğuladı.

# İlham Əliyevin “Ermənistanın təcridi siyasəti”nə Lukaşenkodan və Nazarbayevdən böyük dəstək

## Minsk və Astana Paşinyana qarşı mövqelərini sərtləşdirir

Astanada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) son sammitində yaşananlar işğalçı Ermənistanda hələ də geniş rezonans doğurmaqda davam edir.

Belə görünür ki, təşkilatda təmsil olunan ölkələrin Ermənistanın mövqeyini nəzərə almaqdan imtina etmələri, Azərbaycanla münasibətləri inkişaf etdirməkdə maraqlı olmaları, buna paralel olaraq isə Prezident İlham Əliyevin Belarusa rəsmi səfəri Yerevan üçün əsl şok effekti yaradıb. Cənab İlham Əliyevin belaruslu həmkarı Aleksandr Lukaşenko ilə görüşü, imzalanan sənədlər növbəti dəfə iki ölkə arasında münasibətlərin strateji əhəmiyyətə malik olduğunu təsdiqlədi.

Bütün bunlar həm də onun göstəricisidir ki, qarşıdakı dövr ərzində də Azərbaycan-Belarus əməkdaşlıq və tərəfdaşlıq münasibətləri yalnız yüksələn xətlə inkişaf edəcək. Belə vəziyyət öz növbəsində, mövcud geosiyasi, geoiqtisadi reallıqlar baxımından hər iki dövlətin marağına tam cavab verir.

### “İlham Əliyev Ermənistana növbəti zərbəni Minskdən vurdu”

Birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əks təqdirdə, Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaqdır. Bunu əslində, bütün dünyada, o cümlədən Ermənistanın özündə də kifayət qədər aydın sezirlər.

*Ardı 6-cı səh.*



# Soyuq hava soyuq münasibət sevmir

## “Azəriqaz” və “Azəristilik” qışa hazır olduqlarını deyirlər

Payızdır. Bu həm də o deməkdir ki, qarşıdan qış gəlir. Qışınsa özəlliyi ondadır ki, özünəməxsus gözəlliyi ilə bərabər, bir sıra problemlər də gətirir. Ən azından, istiliyə və enerjiyə tələbat artır və bu zaman kommunal xidmət qurumlarının “mövsümə hazırıq” deməklərində nə qədər həqiqət payı olduğu üzə çıxır.

*Ardı 7-ci səh.*

# Azərbaycan sivilizasiyalararası əməkdaşlığın ən uğurlu platformasıdır

## Zəngin milli-mənəvi dəyərlərimiz və azərbaycançılıq ideyası ölkəmizdə tolerantlığın, multikulturalizmin təkmil modelini formalaşdırıb



2250 məscid, 14 kilsə, 7 sinaqoq, 835 dini qurum, 748 pir və ziyarətgah... Bütün bu müqəddəs dini ocaqlar dünyanın siyasi xəritəsində bəlkə də kiçicik bir nöqtə kimi görünən Azərbaycanda cəmləşib...

İlk yazılı mənbələrdə Aturpatkan, yəni, “od keşikçisi” adını daşıyan Azərbaycanın elə insanları da adı kimi istiqanlı, cana yaxın, şəfqətli, dəyərlərinin keşikçisi idilər. Təsadüfi deyil ki, tarix boyu bu diyar hər kəsin marağını çəkib, karvanlara karvansara, insanlara məskən, işğalçı qoşunlara cəng meydanı olub...

Kimisi ticarət, kimisi yaşamaq, kimisi də zülm və müharibə məqsədilə gəlib bu torpağa. Bu xalq yarandığı gündən Roma döyüşçülərinin talançılığına da, Teymur qoşunlarının tapdağına da, ərəb zülmünə də, Osmanlı yağmasına da, rus əsarətinə də məruz qalıb...

Bütün bunlara baxmayaraq, bu xalqın mahiyyətində əmin-amanlıq, dözümlülük, qonaqpərvərlik olub və bəzən bunun bəlasını da çəkib. Fərqli inanclara, müxtəlif millətlərə, ayrı dəyərlərə anlayışla yanaşmaq, onlarla ehtiramla davranmaq, dözümlü olmaq əslində, Azərbaycan xalqının milli xüsusiyyətidir.

*Ardı 7-ci səh.*

# Azərbaycan ilə Türkiyə arasında strateji işbirliyi gündən-günə möhkəmlənir

*Əvvəli 1-ci səh.*

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşdən böyük qurur hissi keçirdiyini bildirdi. Yaşar Güler qeyd etdi ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji işbirliyi gündən-günə möhkəmlənməkdədir. O, bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Güler Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyini ifadə etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Güler qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər Türkiyə üçün də önəmli məsələdir.



Söhbət zamanı noyabrın 21-də Bakıda keçiriləcək Azərbaycan-Türkiyə-Gürcüstan ordu rəhbərlərinin görüşünün əməkdaşlığın genişlənməsi baxımından önəmi qeyd edildi.

Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler dövlət başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və hakim vəzifəsini nümunəvi yerinə yetirdiklərinə, ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Fikrət Fərrux oğlu
Rzayev Ramiz Yaqub oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Cəfərov Azər Məmməd oğlu
Əliyev Məhərrəm Abış oğlu
Musayev Toğrul Sirac oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Adil Şirməmməd oğlu
Qasımov Elçin Lütvəli oğlu
Mehdiyev Rəfail İbrahim oğlu
Məmmədov İlqar Kamil oğlu
Muradov Aslan Nüsrət oğlu
Yusifov Şahin Yaşar oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov İlqar Eyvaz oğlu
Əkbərov Mübariz Dosməmməd oğlu
Əliyev Alı Yusif oğlu
Əliyev Kəramət Fətəli oğlu
Hacıyev Əfqan Niyətulla oğlu
Həsənov Həbib Bəhram oğlu
Xələfov Elçin Abuzər oğlu
İsayev Məhərrəm Əli oğlu
İsgəndərova İradə Həbib qızı
İsmayılov Eldar Herov oğlu
Kazımov Araz Nurəddin oğlu
Kərimov Səyyub Həsən oğlu
Məmmədov Fazil İbrahim oğlu
Məmmədov Hüseyn Məmməd oğlu
Muradov Hicran Xasay oğlu
Nəcəfov Mehdi Ağabala oğlu
Paşayev Tofiq Temir oğlu
Tağıyev Xəqani Qəhrəman oğlu
Vəliyev Hümmət Telman oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasquliyev İlham Aydın oğlu
Bəşirova Aygün Rafiq qızı
Cəfərov Anar Ələmşah oğlu
Cəfərov Azər Vəliyulla oğlu
Fərəcova Aybəniz Məhərrəm qızı
Fərzəliyev Rəşad Xaliyəddin oğlu
Hadıyeva Güney İmran qızı
Həsənov Rasim Aydın oğlu
Hüseynov Kamal Eldar oğlu
İbrahimov Elnur Elman oğlu
Qafarov Fikrət Məhəmməd oğlu
Qədirova Səbinə Mübariz qızı
Qənbərov Natiq Zərbi oğlu
Məmmədov Xaqani Əli oğlu
Məmmədov İlqar Həbib oğlu
Məmmədova Səbinə Firudin qızı
Nağıyev Həsən Xanəli oğlu
Nəbiyeva Firuzə Mansur qızı
Nəcəfov İlkin Abdulxeyir oğlu
Paşayev Qədir Gülnəzər oğlu
Rzayev Gülmalı Umud oğlu
Sadıqov Xəqani Şababa oğlu
Salmanlı Şəfəq Yaqub qızı
Seyidov Mirsaleh Miradil oğlu
Şahbazov Xalıq Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

## Azərbaycan Respublikasının hakimlərinə və ədliyyə orqanları işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının məhkəmə və ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar hüquqşünas"**

Cavadov Fuad Musa oğlu
Mirzəliyev Əsəd Abdulla oğlu
Nəsibov Hafiz Qənbər oğlu
Zahirov Vilayət Həsən oğlu

**"Əməkdar mühəndis"**

Məmmədov Çingiz Ələddin oğlu

**"Əməkdar həkim"**

Qurbanov İftixar İlham oğlu

**"Əməkdar tibb işçisi"**

Əsgərov Səttar Ələsgər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Əkbər oğlu Həsənova ədliyyə general-leytenantı ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Fazil oğlu Əbilova

Bələdiyyələrlə iş mərkəzinin rəisi Zahir Məmməd oğlu Əlizadəyə

İcra baş idarəsinin rəisi Nurəddin Yusif oğlu Mustafayevə.

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti rəisinin müavinləri Məhərrəm Allahverdi oğlu Qafarova və Oqtay İlyas oğlu Məmmədova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

## B.H.Salayevin Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Baba Hacı-Baba oğlu Salayev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi təyin edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

## P.H.Süleymanovun Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Pənah Hüseyn oğlu Süleymanov Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

# Yüksək etimad, səmərəli əməkdaşlıq, birmənalı dəstək

*Əvvəli 1-ci səh.*

Bu dəfə iki ölkə arasında sosial-əmək, rabitə və informasiya-kommunikasiya texnologiyaları, fövqəladə hallar, hava hücumundan müdafiə silah və texnikasının təchiz olunması, kənd təsərrüfatı və ərzaq, məhkəmə-ekspertiza fəaliyyəti, miqrasiya sahəsində və prokurorluq orqanları arasında əməkdaşlıqla bağlı yeni sazişlər imzalandı.

İmzalanan Birgə Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələlər üzrə Belarusun mövqeyi öz əksini tapıb. Sənəddə deyilir ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Bu, əlbəttə ki. Belarusun münaqişə ilə bağlı sərgilədiyi obyektiv mövqedir.

Minskdə keçirilən hökumətlərarası komissiyanın iclasının yekunlarına dair isə yeddi sənəd imzalandı. Onlardan üçü Gəncə avtomobil zavodu ilə bağlıdır.

Sənədlərdən birində Belarus-Azərbaycan traktorlarının Türkiyədə yığılması nəzərdə tutulur. Müəssisənin 2019-cu ilin I rübündə işə başlaması planlaşdırılır. Türkiyədəki zavodun konveyerindən 5 minə qədər traktorun buraxılması nəzərdə tutulur. İlkin mərhələdə layihənin istehsal gücü 2,5 min ədəd miqdarında yerinə yetiriləcək.

Onu da vurğulayaq ki, Belarusla Azərbaycan arasında daha rahat, dayanıqlı nəqliyyat əlaqəsinin yaradılması nəzərdə tutulur. Bu münasibətlə komissiyanın iclasında "Belarus dəmir yolu" Dövlət Birliyi (DB) və "Azərbaycan Dəmir Yolları" arasında qarşılıqlı-faydalı əməkdaşlığa dair saziş də imzalanıb. Sənəddə tarif və texnologiya istiqamətləri üzrə işçi qruplarının yaradılması da nəzərdə tutulur.

Təbii ki, imzalanan yeni sazişlər əməkdaşlığı daha səmərəli edəcək və iki ölkə arasında münasibətləri şaxələndirəcək.

### İki ölkə arasında əlaqələr dinamik inkişaf edir

Səfər çərçivəsində liderlərin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə keçirdikləri geniş tərkibli görüşlərdə, mətbuata birgə bəyanatlarda bir daha iki ölkə arasında mövcud münasibətlər, iqtisadi-ticari əlaqələr müzakirə olunaraq bütün sahələrdə əlaqələrin daha da dərinləşməsinin vacibliyi vurğulandı.

Aleksandr Lukaşenkonun söylədiyi fikirlərə əsaslanaraq deyə bilərik ki, Azərbaycan Belarus üçün ən etibarlı strateji tərəfdaş olaraq qalır. Belarus Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazırdır. İki ölkə arasında əməkdaşlıq üçün qapalı mövzular yoxdur: "Biz heç vaxt hansısa üçüncü, beşinci ölkələrə qarşı əməkdaşlıq etməmişik. Biz xalqlarımızın rifahı üçün nə lazımdırsa edirik. Hər hansı gizli, qapalı mövzular yoxdur və heç vaxt olmayacaq", - deyə Belarus Prezidenti vurğulayıb.

İki ölkənin beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstərdiyini, bütün məsələlərdə bir-birini dəstəklədiyini söyləyən İlham Əliyev hətta iştirak etmədikləri təşkilatlarda da bir-birilərini dəstəklədiklərini diqqətə çatdırmaqla dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu göstərdi: "Siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq - bütün bunlar üzərində Belarus-Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir".

### Prezidentlərin oxşar baxışları istehsal kooperasiyası üçün möhkəm təməl yaradıb

Görüşlərdə səslənən fikirlər onu deməyə əsas verir ki, Belarus Azərbaycanla ticari-iqtisadi sahədə sistemli və uzunmüddətli əməkdaşlıq etmək əzmindədir. Çünki əmtəə dövriyyəsinin artırılması üçün güclü potensial mövcuddur və iqtisadiyyatın inkişafı ilə bağlı hər iki ölkə rəhbərinin oxşar baxışlarının olması sayəsində geniş istehsal kooperasiyası üçün təməl yaradılıb.

Belarusda maşınqayırmanın flaqmanları olan Minsk Traktor Zavodu, Minsk Avtomobil Zavodu, habelə Gəncə Avtomobil Zavodu bu işin layiqli nümunəsini nümayiş etdiriblər. Gəncədə artıq 10 mindən çox traktor və 3500 vahid avtotexnika yığılıb.

Bu faktlar sənaye kooperasiyası sahəsində müstəsna müsbət nəticələrin əldə edildiyini bir daha təsdiqləyir. Lakin Azərbaycan qazanılmış bu uğurlarla kifayətlənmək fikrində deyil. Çünki İlham Əliyevin söylədiyi kimi, sənaye sahəsində əməkdaşlıq potensialını bundan sonra da artırmaq üçün hələ çox iş görmək olar.

Cənab İlham Əliyev Azərbaycan üçün Belarusun mehriban dost və etibarlı tərəfdaş olduğunu söyləyərək dedi ki, münasibətlərin başlıca əsası qarşılıqlı dəstək, qarşılıqlı hörmət və etimadın yüksək səviyyəsidir.

### Belarusda Azərbaycan məhsullarına çox böyük tələbat var

Onu da vurğulayaq ki, Azərbaycanın xaricdə ilk Ticarət Evi Belarusda açılıb. Prezident İlham Əliyev bu səfər çərçivəsində ötən il açılan ticarət mərkəzində olub və onun fəaliyyətinə uğurlar arzulayıb.

Belarus, ümumiyyətlə, Azərbaycanın yüksək keyfiyyətli məhsullarına maraq göstərir. Bu gün ölkəmizin məhsulları Azərbaycan Ticarət Evində geniş təqdim edilir. Onların Belarus alıcılarında populyarlıq qazanmasına görə cənab İlham Əliyev bu şəbəkənin vilayət mərkəzlərinə genişləndirilməsi haqqında qərar qəbul edib.

Aleksandr Lukaşenko da təsdiqlədi ki, Belarus bazarında Azərbaycan mallarına böyük maraq var. Həm də həmin məhsulları təkcə belaruslar almır. Ukrayna hadisələri ilə əlaqədar bütün axınlar Belarusdan keçir. Ona görə də bu ölkədə Azərbaycan məhsullarına çox böyük tələbat var.

Xatırladaq ki, Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, məhsullarımızın ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərir, Belarusda satışını təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir. Ticarət Evində daimi fəaliyyət göstərən sərgidə Azərbaycanın 30 şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar nümayiş olunur. Burada, həmçinin "ASAN" və "ABAD" stendləri də ziyarətçilərə təqdim edilir.

### Azərbaycanlılar ticarəti bacaran ən yaxşı adamlardır

İki ölkə arasında iqtisadi-ticari əlaqələrdən danışarkən Belarus Prezidenti maraqlı bir məqama da toxundu. Onun fikrincə, azərbaycanlılar ticarəti bacaran ən yaxşı adamlardır: "Mən bunu həmişə etiraf etmişəm. Bunu necə etməyi biz sizdən öyrənməliyik. Bununla əlaqədar keçən il Minskdə Ticarət Evi açılmasını alqışlayıram. Biz bu layihəyə maksimum dəstək veririk, əmtəə dövriyyəsinin tarazlaşdırılmış artımı istiqamətləri üzrə təklifləri bundan sonra da dəstəkləmək niyyətindəyik".

Onu da qeyd edək ki, artıq Bakıda da yüksək keyfiyyətli və vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan yeddi ticarət müəssisəsi mövcuddur.

### Liderlərin görüşü münasibətlərə yeni təkan verdi

Bir sözlə, iki ölkənin liderləri arasındakı görüşdə bütün sahələri əhatə edən müxtəlif məsələlər barədə danışıldı və ən əsası, Belarusun ölkəmizə olan münasibəti bir sıra əhəmiyyətli aspektlərdən diqqəti cəlb etdi.

İlk növbədə onu demək olar ki, bu gün Belarus istər MDB məkanında, istərsə də dünyada öz iqtisadiyyatı, sənayesi, xüsusilə hərbi sənayesi ilə özəl çəkiyə malik ölkələrdən hesab olunur. Azərbaycanın Belarusla qurduğu münasibətlər əlbəttə ki, respublikamıza siyasi-iqtisadi dividendlər qazandırır.

Bu görüş iki ölkə arasında əmtəə dövriyyəsinin artmasına, nəqliyyat, logistika, maşınqayırma sənayesi, neft-qaz layihələrinin həyata keçirilməsinə, həmçinin digər sənaye sahələrindəki davamlı əlaqələrin inkişafına öz müsbət təsirini göstərəcək.

Liderlərin söylədikləri fikirlərə əsaslanaraq deyə bilərik ki, iki ölkənin prezidentləri İlham Əliyevlə Aleksandr Lukaşenkonun birgə səyləri münasibətlərin inkişafına yeni təkan verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Prezident İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi"

"Azərbaycan Respublikası ilə Belarus Respublikası arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin formalaşmasında və inkişafında dövlətlərimizin başçıları arasındakı səmimi dostluq münasibətləri, dialoq və qarşılıqlı anlaşma mühüm rol oynayır".



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfərinin nəticələri barədə AZƏRTAC-a açıqlama verən Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, dövlət başçıları tərəfindən müəyyən olunan tapşırıqlar əsasında əməkdaşlığın hərtərəfli inkişafının məqsədləri müəyyənləşdirilir. İndiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarusa beş dəfə, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə Azərbaycana dörd dəfə rəsmi səfər edib. Bu rəsmi səfərlərin intensivliyi Azərbaycan-Belarus əlaqələrinin inkişaf dinamikasından xəbər verir.

"Dövlətimizin başçısının Belarusa budəfəki rəsmi səfəri ilə bağlı bir məqamı xüsusilə qeyd etməliyəm ki, protokola görə dövlət başçıları arasında təkbətək görüş 45 dəqiqə nəzərdə tutulsa da, həmin görüş 2 saatdan artıq davam etdi. Bir daha qeyd etmək istərdim ki, bu, prezidentlər arasında olan səmimi dostluğun və Belarus-Azərbaycan əməkdaşlığının məzmun və mahiyyətinin, necə zəngin xarakter daşımasının növbəti bariz nümunəsidir", - deyə o əlavə edib.

Prezident Administrasiyasının rəsmisi deyib ki, səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bəyanatda qeyd olunur: "Tərəflər, yəni dövlət başçıları Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn qəbul edilmiş norma və prinsipləri, xüsusilə dövlətlərin suveren bərabərliyi, tərəflərin toxunulmazlığı, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə sülh yolu ilə həllinin vacibliyini qeyd edirlər". Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir. Münaqişənin həllinin əsasları da beynəlxalq ictimaiyyət üçün aydın xarakter daşıyır ki, bu da Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələridir. Həmçinin Belarus ilə Azərbaycan arasında olan yüksək etimadın təcəssümü və göstəricisidir ki, ölkələrimiz üzv olmadığı beynəlxalq təşkilatlarda da bir-birini dəstəkləyir. Dövlət başçısı mətbuata bəyanatında da qeyd etdi ki, bu, sanki avtomatik xarakter daşıyır. Yəni hər hansı bir məsləhətləşmə olmadan belə Azərbaycan və Belarus üzv olmadıqları, biri üzv olmadığı beynəlxalq təşkilatlarda öz dəstəyini verir və bu dəstək mütəmadi, davamlı xarakter daşıyır. Həmçinin Azərbaycan ilə Belarus arasında hərbi-texniki sahədə çox sıx əməkdaşlıq var. Səfər çərçivəsində hərbi-texniki əməkdaşlığın inkişafı ilə əlaqədar da Anlaşma Memorandumu imzalandı. Bu Memorandumdan irəli gələrək hava hücumlarından müdafiə sistemlərinin, müxtəlif hücum vasitələrinin, o cümlədən atəş-idarəetmə sistemlərinin alınması üzrə kontraktlar həyata keçiriləcək".

Hikmət Hacıyev bildirib ki, bu səfər Azərbaycan-Belarus əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. İmzalanmış sazişlər, aparılan danışıqlar Azərbaycan-Belarus əlaqələrinin hərtərəfli inkişafı üçün yeni perspektiv imkanlar açıb. Hesab edirik ki, qarşıya qoyulan məqsəd və məramların hökumətlərarası komissiya və digər işçi qruplar vasitəsilə həyata keçirilməsi üçün intensiv işlər bundan sonra da davam etdiriləcək.

2019-cu ildə Belarus ikinci Avropa Oyunlarına evsahibliyi edəcək. Bildiyiniz kimi, Avropa Oyunları konsepsiyasının müəllif və təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Azərbaycan I Avropa Oyunlarına uğurla evsahibliyi etdi. Azərbaycan Olimpiya hərəkatının məqsəd və məramlarına sadiqliyini nümayiş etdirdi, bu məqsəd və məramların Avropa qitəsində inkişafına öz töhfəsini verdi. Azərbaycan bu sahədə öz təcrübəsini dost və tərəfdaş ölkə olan Belarus ilə açıq şəkildə bölüşür. Belarus da, öz növbəsində, Azərbaycanın bu dəstəyini, aparılan təcrübə mübadiləsini yüksək qiymətləndirir. Bu məqamlar Belarusun dövlət başçısı tərəfindən də qeyd olunub.

# Baş nazir Novruz Məmmədov ATƏM-in Minsk konfransının ilk sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 20-də italiyalı diplomat və ATƏM-in (hazırkı ATƏT) Minsk konfransının ilk sədri Mario Raffaelli ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Mario Raffaellinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətindəki fəaliyyətini xatırladan Novruz Məmmədov Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində problemin hələ də həllini tapmamasını təəssüflə qeyd edib. Baş nazir Novruz Məmmədov münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu vurğulayıb, məsələnin ədalətli həllinə beynəlxalq ictimaiyyətin diqqətinin daha da artırılmasının zəruriliyini diqqətə çatdırıb.

Mario Raffaelli "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət və üçüncü tərəflərin məsuliyyəti" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakıda səfərdə olduğunu söyləyib. O, ölkəmizlə, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər məlumatlı olduğunu bildirib, 25 il sonra yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# DOST Agentliyinin konsepsiyasının təqdimatı olub



Noyabrın 20-də Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin - DOST Agentliyinin konsepsiyasının, ölkə başçısının 2018-ci il 5 sentyabr tarixli fərmanı ilə yaradılmış "e-sosial" internet portalının, nazirliyin yeni loqosunun və rəsmi internet səhifəsinin (www.sosial.gov.az) təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə hökumət rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin səfirliklərinin, elm-təhsil qurumlarının, QHT-lərin, biznes strukturlarının nümayəndələri iştirak edib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinin Prezident İlham Əliyevin sosial siyasətinin mühüm istiqamətini təşkil etdiyini bildirib. O, ötən dövr ərzində bu istiqamətdə nəzərəçarpan irəliləyişlər olduğunu qeyd edib. Dövlət sosial xidmətlər sisteminin innovativ həllərin tətbiqi üzərində təkmil şəkildə qurulması və şəffaflaşdırılması üçün aparılan islahatlardan danışan Əli Əhmədov DOST Agentliyi və mərkəzlərinin bu istiqamətdə mühüm keyfiyyət dəyişikliyinə imkan yaradacağını diqqətə çatdırıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət sosial xidmətləri sahəsində vətəndaş məmnunluğuna nail olunmasının ölkə başçısının sosial sahə ilə bağlı islahatlar proqramının başlıca xətti olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı ilə yaradılan DOST Agentliyinin və mərkəzlərinin bu məqsədə nail olunmasına imkan verəcəyini deyib. Bildirilib ki, DOST layihəsinin həyata keçirilməsi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə xidmətlərin tam şəffaf, vətəndaşlarla açıq iş şəraitində, nəzakətli şəkildə, sadə və əlçatan prosedurlarla təqdim edilməsinə imkan verməklə ölkəmizin bu sahə üzrə yeni brendini formalaşdıracaq. Layihənin icrası yerli və beynəlxalq ekspertlərin iştirakı ilə, mütərəqqi dünya praktikasının öyrənilməsi şəraitində aparılır. Görülən işlərin mühüm tərkib hissəsi kimi artıq DOST Agentliyinin konsepsiyası hazırlanıb. Nəticədə 124 xidmət "vahid pəncərə"də vətəndaşlara təqdim olunub.

Qeyd edilib ki, vətəndaşların ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatları əhatə edən "e-sosial" internet portalı da yaradılıb. Bu işlərlə bərabər nazirliyin müasir iş prinsiplərini və innovativ yeniliklərə açıq olmasını, cəmiyyətlə münasibətlərdə əsas yanaşma və hədəflərini özündə əks etdirən yeni loqotipi hazırlanıb, həmçinin rəsmi internet saytı yenidən qurulub.

Sonra "e-sosial" internet portalının, DOST Agentliyinin konsepsiyasının, nazirliyin yeni loqosunun və rəsmi internet səhifəsinin (www.sosial.gov.az) təqdimatı olub.

Təqdimatlar zamanı qeyd olunub ki, "e-sosial" internet portalı sosial reyestr xarakteri daşıyır. Portal vətəndaşlara ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatlara çıxış imkanı verir. Portalda vətəndaşa "Proaktiv xəbərdarlıqlar", "Məsləhətlər" bölməsi fəaliyyət göstərir. Bir sıra hallar üçün vətəndaşa əvvəlcədən mütəmadi xatırlatmalar edilməklə hüquqları barədə məlumat veriləcək. Nazirlik müvafiq hallarda portal vasitəsilə vətəndaşlarla bağlı artıq onların müraciətini gözləmədən, intellektual analizlər apararaq interaktiv təşəbbüslərlə çıxış edəcək. Portala istifadəçi adı və şifrə əldə etməklə e-imza və "ASAN imza" ilə daxil olmaq mümkündür.

Növbəti təqdimat çərçivəsində DOST Agentliyinin konsepsiyasının prioritetləri, yol xəritəsi, DOST Agentliyi və mərkəzlərinin fəaliyyətinin təşkili üçün müvafiq hüquqi çərçivə, qanunvericilik layihələri, 124 xidmət üzrə pasportlar, 116 vəzifə təlimatı, xidmətlərin göstərilməsi qaydaları, "Gənc DOST" proqramı, eləcə də mərkəzlərin elektron infrastrukturunun formalaşdırılması istiqamətində aparılan işlər və onların nəticələri barədə məlumat verilib. DOST regional proqramından bəhs olunub, 2019-2025-ci illərdə Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin yaradılacağı bildirilib. DOST-un əsas missiyasının ölkə əhalisinin DOST mərkəzləri şəbəkəsi və müasir texnologiyaların tətbiqi ilə əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə rahat çıxışına imkan yaradılması olduğu diqqətə çatdırılıb. E-sosial, e-pensiya, e-məşğulluq və digər alt sistemlər üzrə təqdim olunacaq xidmətlər, əyani müraciət edənlərlə yanaşı, səyyar formada əhaliyə göstəriləcək xidmətlər, məsləhət və məlumat xidmətlərinin təşkili üzrə görüləcək işlər və s. barədə məlumat verilib.

Tədbir iştirakçıları nazirliyin yeni loqosu və saytı ilə tanış olublar. Bildirilib ki, loqoda istifadə olunan komponentlər nazirliyin məram və hədəflərini ifadə edir, "İnsan amili ölkəmizdə aparılan siyasətin ana xəttidir" mesajını çatdırır. Bu komponentlər sosial müdafiədə aktiv dəstəyi, demoqrafik inkişafı, etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmanı, sosial rifahı və cəmiyyətlə münasibətlərdə şəffaflığı ifadə edir. Yeni sayt - www.sosial.gov.az istifadəçiyə nazirlik, nazirliyin fəaliyyət sahələri, aidiyyəti xidmətlər, habelə müvafiq qanunvericilik barədə məlumat verir, bu xidmətlərə müraciət üçün prosedurları sadə şəkildə izah edir, həmçinin e-xidmətlərə birbaşa çıxışa imkan yaradır.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək əhalinin sosial rifahının və xidmətlərə əlçatanlığın təmin edilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirib, təqdimatlarla bağlı fikirlərini bölüşüblər.

# İzmirdə Türkdilli Ölkələrin Parlament Assambleyasının Şura iclası keçirilib

## *Azərbaycan Milli Məclisi Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib*







Türkiyənin İzmir şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 8-ci Şura iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Milli Məclisin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Nizami Cəfərov, İlham Əliyev, Sevinc Hüseynova, Sədaqət Vəliyeva, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Şura iclasına TÜRKPA-nın baş katibi və təşkilata digər üzv ölkələrin - Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin nümayəndə heyətləri qatılıb.

İclasdakı çıxışında ötən on il ərzində TÜRKPA-nın ciddi siyasi çəkiyə malik olan beynəlxalq təşkilat kimi formalaşdığını diqqətə çatdıran Milli Məclisin Sədri Oqtay Əsədov qeyd edib ki, türkdilli ölkələrin ortaq parlament məclisinin fəaliyyəti dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsinə kömək göstərməyə yönəlib. Siyasi, iqtisadi, mədəni və digər əlaqələrimizin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə inkişafına TÜRKPA-nın verdiyi töhfənin ildən-ilə artması təşkilatın fəaliyyətinin səmərəli şəkildə qurulduğunu sübut edir. Təşkilatımız dünyanın 152 ölkəsinin üzv olduğu Parlamentlərarası İttifaqda, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə, Asiya Parlament Assambleyasında müşahidəçi statusu alıb, ATƏT-in Parlament Assambleyasının fəaliyyətində xüsusi qonaq kimi iştirak etməsi barədə razılıq əldə edilib. Coğrafi-siyasi cəhətdən çox önəmli bölgələri əhatə edən Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması türk dünyasının beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir. Üzv ölkələrin parlamentləri bu təşkilat çərçivəsində sıx əməkdaşlıq edərək bir sıra uğurlara imza atıblar. Azərbaycan parlamenti bu uğurlara sevinir və təşkilata ən yüksək səviyyədə dəstək verir. TÜRKPA-nın Beynəlxalq Katibliyinin Bakı şəhərində səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırım, Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekov TÜRKPA-nın on illik şərəfli inkişaf yolundan, əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışıblar.

Sonra baş katib Altınbek Mamayusupovun təşkilatın 2018-ci ildəki fəaliyyətinə dair hesabat məruzəsi dinlənilib.

Assambleya Şurasının 8-ci iclasında təşkilata sədrlik Qırğızıstandan Türkiyəyə keçib.

* * *

Daha sonra Türkdilli Ölkələrin Parlament Assambleyasının yaranmasının 10 illik yubileyi ilə əlaqədar "TÜRKPA-nın ilk 10 ili və parlamentlərarası əməkdaşlığın gələcəyi: əməkdaşlığa dair yeni yanaşmalar" mövzusunda üç paneldən ibarət konfrans keçirilib.

Konfransda rəsmi şəxslər, deputatlar, tanınmış elm və mədəniyyət xadimləri, türkoloq alimlər, beynəlxalq təşkilatların rəhbər şəxsləri iştirak ediblər.

Əvvəlcə TÜRKPA-nın yaranması və inkişaf yolunu əks etdirən film nümayiş olunub. Filmdə TÜRKPA-nın Bakı şəhərində yerləşən Mərkəzi Qərargahının təməlinin qoyulması, binanın açılışı, o cümlədən qurumun ölkəmizdə keçirdiyi tədbirlərdən, paytaxtımızın tarixi və müasir mənzərəli yerlərindən kadrlar əks olunub.

Konfransın açılışında Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədovun, Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırımın, Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin, Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekovun və Macarıstan Milli Assambleyasının Sədri Laszlo Köverinin çıxışları dinlənilib.

Çıxışında türkdilli ölkələrin ortaq parlament məclisinin yaranmasının tarixi zərurətdən irəli gəldiyini söyləyən Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, əsrlər boyu türk dünyasının mütəfəkkir insanlarını düşündürən türk birliyi ideyasının həyata keçməsi üçün real şərait yalnız XX əsrin sonlarında formalaşıb. Sovetlər Birliyinin dağılması, dünyanın siyasi xəritəsinə Türkiyə Cümhuriyyəti ilə yanaşı, beş yeni türkdilli dövlətin əlavə olunması xalqlarımızın tarixi taleyinin öz məcrasına qayıtmasına təkan verib. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin keçirilməyə başlanılması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması, Türkdilli Ölkələrin Parlament Assambleyasının, eləcə də TÜRKSOY-un, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, Beynəlxalq Türk Akademiyasının və digər təşkilatların qurulması göstərdi ki, dost və qardaş xalqlarımız inteqrasiya üçün yaranan yeni imkanları lazımınca dəyərləndirə biliblər.

Türkdilli xalqları bir-birinə bağlayan dəyərləri böyük mənəvi sərvət kimi qiymətləndirən parlamentin sədri məmnunluqla qeyd edib ki, müstəqil dövlətlərimiz bütün sahələrdə uğurla əməkdaşlıq edir və bir-birinə dəstək olurlar. Şübhə yoxdur ki, möhkəm təməl üzərində qurulan işbirliyimiz ölkələrimizin yerləşdiyi bölgələrin tərəqqi və çiçəklənmə zonasına çevrilməsinə gətirib çıxaracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional və beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olduğunu diqqətə çatdıran Milli Məclisin Sədri əminliyini ifadə edib ki, dünyadakı bütün münaqişələr hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları və prinsipləri, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tez bir zamanda həll edilməlidir. İnanıram ki, bölgədə möhkəm sülhün bərpa edilməsi burada yaşayan bütün xalqların mənafelərinə cavab verər.

İzmir bölgəsinin strateji imkanlara malik olduğunu söyləyən TBMM-in Sədri Binəli Yıldırım diqqətə çatdırıb ki, bölgənin dəmir yolu şəbəkəsinin Bakı-Tbilisi-Qars yoluna birləşdirilməsi və bununla da Qafqaz ilə Orta Asiya arasında daha etibarlı nəqliyyat bağlantısının qurulması hədəflənir. TÜRKPA-nın on illik fəaliyyətini yüksək dəyərləndirən Türkiyə parlamentinin sədri vurğulayıb ki, türkdilli xalqlar tarixin heç bir dövründə indiki qədər yaxın münasibətdə və geniş əməkdaşlıq imkanında olmayıblar. O, əminliklə qeyd edib ki, türkdilli dövlətlərin gələcək inkişafına TÜRKPA daha böyük töhfələr verəcək.

TÜRKPA-nın yaranmasını və əldə etdiyi uğurları tarixi missiya kimi dəyərləndirən Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulin vurğulayıb ki, təşkilat ötən dövrdə üzərinə düşən vəzifələri uğurla həyata keçirib. Mədəni, humanitar, iqtisadi və digər sahələrdə üzv dövlətlər arasında əlaqələrin genişlənməsi və əməkdaşlığın yüksəlişi naminə köklü layihələr həyata keçirilib. Əməkdaşlıq, əlaqələrin genişlənməsi, sülhə və inkişafa töhfə vermək bütün tərəflərin maraqlarını təmin edir.

Ölkəsinin təşkilata sədrliyi dövründə TÜRKPA-nın qazandığı nailiyyətləri ortaq sərvət kimi dəyərləndirən Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekov diqqətə çatdırıb ki, müasir dövrdə dünyada baş verən proseslər göstərir ki, xalqlarımızın və ölkələrimizin inkişafı və təhlükəsizliyi əməkdaşlığın genişləndirilməsindən, əlaqələrin daha da sıxlaşdırılmasından keçir. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə təsis olunan TÜRKPA-nın ötən dövrdə böyük inkişaf yolu keçdiyini xatırladan parlament sədri qurumun səmərəli fəaliyyəti üçün Bakıda yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Macarıstan Milli Assambleyasının Sədri Laszlo Köver ölkəsinin türkdilli dövlətlərlə əlaqələrə xüsusi diqqət verdiyini vurğulayıb. Tarixi proseslərə, türkdilli xalqların irsinə və digər mühüm məqamlara toxunan Assambleya sədri bildirib ki, Macarıstan TÜRKPA-ya üzv dövlətlərlə əməkdaşlığa, türkdilli xalqlarla münasibətlərin inkişafına böyük önəm verir.

Çıxışlarda TÜRKSOY, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Beynəlxalq Türk Akademiyası kimi təşkilatların fəaliyyətinin əhəmiyyəti qeyd edilib. Vurğulanıb ki, ölkələrimizin sürətli inkişafının təmin olunmasında qarşılıqlı faydalı əməkdaşlıq böyük gücə malik olduğu kimi, yüksək elm və təhsilin də mühüm əhəmiyyəti var. Odur ki, bir sıra sahələrdə, həmçinin elm və təhsildə standartların müəyyən olunması böyük əhəmiyyət daşıyır.

Sonra Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekov "TÜRKPA-nın xidmətlərə görə" medalı ilə təltif olunub.

Daha sonra konfrans panellər üzrə davam etdirilib. Birinci panelə professor Zeki Kaymaz, ikinci panelə professor Fikret Türkmen, üçüncü panelə isə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva sədrlik edib.

# Vergi qanunvericiliyi daha da təkmilləşdirilir

## *Dövlət orqanları ilə vergi ödəyiciləri arasında ünsiyyət minimuma endiriləcək*

Noyabrın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Komitə sədri Ziyad Səmədzadə bildirib ki, iclasın gündəliyinə Vergi Məcəlləsində, "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələrin müzakirəsi daxil edilib.

İlk sənədlə bağlı nəzərdə tutulan dəyişikliklərə toxunan Ziyad Səmədzadə qeyd edib ki, bunların ana xəttini ölkə iqtisadiyyatında şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə təşkil edir.

İclasda iştirak edən vergilər naziri Mikayıl Cabbarov Vergi Məcəlləsində dəyişikliklərin əsas istiqaməti və mahiyyəti barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, dəyişikliklər beş əsas istiqaməti əhatə edir. Bunlara sahibkarlığın inkişafının dəstəklənməsi, gizli iqtisadiyyatın qarşısının alınması və iqtisadiyyatın şəffaflaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergi güzəştlərinin tətbiqi ilə iqtisadi sənayenin yüksəldilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi daxildir.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsinin nəzərdə tutulduğunu deyən Mikayıl Cabbarov söyləyib ki, görülən işlər əhalinin sosial müdafiəsi, pensiya təminatının, eləcə də pensiya sisteminin maliyyə dayanıqlığının gücləndirilməsinə yönəlib. Dəyişikliklər, həmçinin əhalinin kreditə çıxış imkanlarının genişləndirilməsinə də xidmət edəcək.

Nazir atılacaq addımların fayda verəcəyinə və şəffaflığın artırılması sayəsində vergitutma bazasının genişlənəcəyinə ümid etdiyini bildirib.

Mikayıl Cabbarovun sözlərinə görə, ölkədə dövlət orqanları ilə vergi ödəyiciləri arasında ünsiyyətin minimuma endirilməsi planlaşdırılır və bir sıra dəyişikliklər vergi orqanlarının bu sahədə səlahiyyətlər, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Digər dövlət orqanları ilə elektron məlumat mübadiləsinin genişləndirilməsi, dəyişikliklər vasitəsilə ölkədə iqtisadi səmərənin artırılması, sui-istifadə hallarının azaldılması nəzərdə tutulur. Biznes mühitinin təkmilləşdirilməsi də diqqət mərkəzindədir.

O da vurğulanıb ki, sadələşdirilmiş vergi ödəyicilərinin sayı 2013-cü ildən bu günə qədər 1.5 dəfə artıb və onların vergi ödəyicilərinin aktiv sayında payı 56 faizə yaxındır.

Dəyişikliklərə görə, pərakəndə ticarət və nağdsız ödənişlər üzrə posterminallar vasitəsilə müddətli vergi güzəştlərinin verilməsi təklif edilir. Həmçinin lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan, zərgərlik məhsullarının, topdansatış ticarət fəaliyyətini həyata keçirən və bu kimi digər şəxslərin gəlir və xərclərinin uçotunun aparılması üçün dəyişikliklər təklif olunur. Kiçik və orta biznesin təkmilləşdirilməsini nəzərdə tutan dəyişikliklər də var.

İclasda "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Sığorta fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələr də müzakirə olunub. Qanun layihələri barəsində məlumat verən maliyyə nazirinin müavini Azər Bayramov qeyd edib ki, dəyişikliklər yeni büdcə qaydalarının tətbiqi ilə əlaqədardır.

Daha sonra "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, deputatlardan Cavid Qurbanov, Vahid Əhmədov, Tahir Mirkişili, Əli Məsimli, Xanhüseyn Kazımlı dəyişikliklərlə bağlı fikir və təkliflərini səsləndiriblər.

Vergilər naziri Mikayıl Cabbarov səsləndirilən fikir və təkliflərə münasibət bildirərək əlavə edib ki, əsas məqsəd Azərbaycan Prezidenti tərəfindən müəyyənləşdirilən tələbləri, ölkə iqtisadiyyatının şəffaflaşdırılması, sağlam iqtisadi rəqabətin təmin edilməsi istiqamətində vəzifələri yerinə yetirməkdir.

Sonda müzakirə olunan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasından 26 il ötür. Fəaliyyəti və şərəfli tarixi ilə həm də müstəqil Azərbaycanın salnaməsini yaradan YAP Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi dövlətə və xalqa layiqincə xidmət edib. Hazırda Yeni Azərbaycan Partiyasında İlham Əliyev missiyası şərəflə, məsuliyyətlə, fədakarlıqla davam edir və nəticəsi misilsiz nailiyyətləri olan alternativsiz siyasi kursla müşayiət olunur. İctimaiyyətin haqlı olaraq Heydər Əliyev Partiyası adlandırdığı YAP bundan sonra da Azərbaycanın qüdrətlənməsinə, dövlətçiliyimizin inkişafına xidmət edəcək, xalqın yeganə etimad ünvanı olaraq hakim siyasi təşkilat statusunu daim özündə saxlayacaq.




# Dünənin, bu günün və sabahın partiyası

## Heydər Əliyevin qurduğu Yeni Azərbaycan Partiyasında İlham Əliyev missiyası şərəflə, məsuliyyətlə, fədakarlıqla davam edir

### YAP ölkəmizin nail olduğu ən böyük uğurların carçısına çevrilib

**Bahar MURADOVA,**
*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü:*

- Müstəqil Azərbaycan dövlətinin siyasi, sosial-iqtisadi və mənəvi əsaslarının sivil normalar çərçivəsində formalaşması, təşəkkül tapması mürəkkəb mərhələ və proseslərdən keçmişdir. Bu proseslər cəmiyyətin strukturları və onlar arasındakı qarşılıqlı əlaqələri iflic etmiş meyillərdən və həyati vacib hadisələri dağıdıcılıq ruhundan xilas edib məqbul məcraya yönəldən addımlarla müşayiət olunmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəlində, müstəqilliyimizin ilk illərində xalqı və cəmiyyəti sağlam ideologiya ətrafında birləşdirəcək bir partiyanın ölkənin siyasi fəaliyyət arenasına çıxmasına böyük ehtiyac var idi. Belə bir siyasi qüvvə ulu öndər Heydər Əliyevin xeyir-duası və rəhbərliyi ilə həyata vəsiqə qazanan Yeni Azərbaycan Partiyası oldu. YAP yarandığı gündən etibarən ölkəmizin son onilliklərdə nail olduğu ən böyük uğurların carçısına çevrildi.

Əminliklə söyləmək olar ki, əbədiyaşar öndərin parlaq ideyalarına həmişə sadiq olan YAP artıq öz hədəflərinə çatıb, xalqımızı, dövlətimizi 1990-cı illərin əvvəllərinin o təlatümlərindən bugünkü aydın, rəvan inkişaf yoluna çıxarıb. Mübaliğəsiz olaraq qeyd olunmalıdır ki, vaxtilə kəskin ziddiyyətlər və qarşıdurmalarla üzləşmiş cəmiyyətin inkişaf meylinin konstruktivliyə və sabitliyə yönəlməsi tarixi 15 iyun 1993-cü ildən başlayır. Məhz həmin dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqının həyatında mühüm tarixi hadisə oldu. Ulu öndərin siyasi rəhbərliyə qayıdışı YAP-ı da hakimiyyətə gətirdi və bu nəhəng siyasi təşkilat Azərbaycanda dövlət quruculuğu, demokratikləşmə prosesinin hərəkətverici qüvvəsi kimi çıxış etdi.

Amalı, məqsədi ilə azad və firavan cəmiyyətin quruculuğunu hədəfləyən, Heydər Əliyev ideyalarının daşıyıcısı olan Yeni Azərbaycan Partiyası ötən 26 il ərzində ölkəmizin müstəqil, demokratik, sivil dövlət kimi bərqərar olmasına və möhkəmlənməsinə əvəzsiz töhfələr verməklə mübarizələrlə dolu böyük və şərəfli bir yol keçmişdir. Heydər Əliyevin müdrik siyasi baxışlarından və zəngin dövlətçilik təcrübəsindən bəhrələnərək öz fəaliyyətini mükəmməl siyasi mexanizmlər üzərində quran bu təşkilat məhz ölkənin taleyüklü problemlərinin həllində həmişə ön cərgədə olduğu, xalqın maraq və mənafelərinin keşiyində durduğu üçün ümumxalq partiyası statusunu qazanmışdır. Yarandığı gündən öz siyasi xəttinə bağlılığı, xalq və dövlət qarşısındakı xidmətləri və ölkəmizin dinamik inkişafı Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki nüfuzunu artırıb və mövqeyini xeyli möhkəmləndirib.

Azərbaycanın siyasi ab-havasına yeni nəfəs gətirmiş Yeni Azərbaycan Partiyası demokratik şəraitdə fəaliyyət göstərən çoxpartiyalı sistemdəki qüvvələr arasında siyasi mədəniyyət nümunəsinə, siyasi sistemin gələcəyini, perspektivini müəyyənləşdirən və cəmiyyətdə bu təsəvvürlərin düzgün məcraya yönəldilməsini təmin edən ideya və texnologiyalar məktəbinə çevrilib. Bu, gün səmimiyyətə və inama söykənən bu qarşılıqlı münasibət Azərbaycanın tərəqqisini stimullaşdıran başlıca amillərdən biridir. Bu həm də müstəqillik dövründə Azərbaycanın əldə etdiyi bütün uğurların altında Yeni Azərbaycan Partiyasının imzasının olduğunun etirafıdır. Ona görə də mən digər siyasi həmfikirlərim kimi əbədiyaşar Heydər Əliyev məfkurəsinin məhsulu olan bu siyasət və mənəviyyat məktəbinin müdavimi olmağımdan qürur duyuram. Çünki Azərbaycanın ən ağır problemlərini çiyinlərində daşıyan, azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən YAP hər zaman üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib. Gələcəyə ümidlərin tükəndiyi bir vaxtda Yeni Azərbaycan Partiyası ölkəmizin müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə aparan yolun əsasını qoyub. O, dünənin, bu günün və gələcəyin partiyası adını şərəflə doğruldaraq və bu məsuliyyəti dərindən dərk edərək Azərbaycanın siyasi sisteminin normal dayaqlar üzərində inkişaf etməsinə güclü əsaslar yaratmaqla bu tarixi missiyanı şərəflə daşıyır.

Böyük qürur hissi ilə deyə bilərəm ki, xalqımızın və Yeni Azərbaycan Partiyasının mənəvi lideri olan Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan etibarlı əllərdədir. Ulu öndərin müstəqil, dinamik inkişafının əsasını qoyduğu ölkəmizi Prezident İlham Əliyev inamla, qətiyyətlə irəliyə aparır və özünün gərgin, məhsuldar fəaliyyəti ilə dövlətçiliyimizə, müstəqilliyimizə, ölkəmizin sosial-iqtisadi tərəqqisinə şərəflə xidmət edir. "Mən istəyirəm Azərbaycanda yoxsul olmasın, işsiz olmasın. Hamı yaxşı yaşasın!"- bu, möhtərəm Prezident İlham Əliyevin ülvi arzusu və ən böyük devizidir. Bu deviz dövlətçiliyimizin qorunması, müstəqilliyimizin möhkəmləndirilməsi işinə, ölkəmizin tərəqqisinə, insanların rifahına xidmət edir. Onun "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" şüarı Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, qarşıya qoyulmuş hədəfə - dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparır.

Cəmiyyətdə və siyasətdə sözübütöv, sağlam ideyalı şəxsiyyət kimi tanınmaq, birmənalı qəbul olunmaq üçün mövcud problemləri görmək, onları düzgün, peşəkarlıqla və ədalətlə həll etmək zəruridir. Prezident və partiya sədri kimi cənab İlham Əliyevin fəaliyyətinin əsas prinsipləri peşəkarlıq, prinsipiallıq, işgüzarlıq, ardıcıllıq, sadiqlik və düzlükdür. Tələbləri isə obyektivlik, ədalətlilik, təvazökarlıq, dəqiqlik, qayğıkeşlik, milli ayrı-seçkiliyə yol verməmək, qanunun aliliyi və mənəvi saflıqdır. Həqiqi mənada, sözübütöv, ideyaları sağlam olan dövlət xadimi və partiya lideri kimi İlham Əliyev nəyə söz vermişdisə, hansı proqramı qəbul etmişdisə, onların hamısının həyata keçirilməsini təmin etmişdir. O, bu keyfiyyətlərinə və şəxsi xarizmasına görə müasir siyasətdə fərqlənən ən dəyərli və güclü dövlət başçılarından biridir.

Liderimizin bu nümunəvi keyfiyyətlərinin səciyyəvi xüsusiyyətləri onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasına da xasdır. Bu gün iqtidar partiyası olan YAP müasir çağırışlara cavab olaraq özünün çoxşaxəli fəaliyyətinin coğrafiyasını və təsir dairəsini getdikcə genişləndirməklə beynəlxalq hüquq və prinsiplər əsasında dövlətlər arasında etimadın yaradılmasına da böyük töhfələr verməkdədir. Bölgənin ən güclü və nüfuzlu siyasi qüvvəsi kimi özünü təsdiq etmiş Yeni







Azərbaycan Partiyası Avropada və Asiyada fəaliyyət göstərən nüfuzlu siyasi hərəkatlar və partiyalarla faydalı və səmərəli işgüzar əlaqələrə malikdir və bu münasibətlər getdikcə yüksələn xətlə inkişaf edir. Azərbaycanın beynəlxalq aləmə, dünyanın ayrı-ayrı nüfuzlu təşkilatlarına inteqrasiya olunması prosesində YAP fəal rol oynayır. Ölkəmizin beynəlxalq, mədəni, humanitar əlaqələrinin arzuolunan səviyyəyə çatdırılması, dünyada və regionda sülhün və təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən dövlət siyasətində YAP aparıcı və öncül mövqeyə sahibdir. Bir sözlə, bölgədə ən güclü və mükəmməl struktura malik olan Yeni Azərbaycan Partiyası ölkəmizin regionda əsas söz sahibi olmasında xüsusi əzmkarlıq göstərir və bu fəaliyyətini uğurla davam etdirməkdədir.

Yeni Azərbaycan Partiyası yarandığı gündən bütün məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, azərbaycançılıq, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində durmuşdur. Ölkəmizin tarixinin ən ağır sınaq zamanında yaranan Yeni Azərbaycan Partiyası dövlətçiliyin qorunması, ölkədə sabitliyin bərqərar olması, demokratik dəyərlərə üstünlük verilməsi prosesini nizamlayan real siyasi qüvvə kimi özünü təsdiq edə bilmişdir. Bunun ən bariz nümunəsi kimi onun sıralarında minlərlə həmfikir insanların bir yerdə cəmləşməsini və ölkəmizin uğurlu inkişafna əvəzsiz töhfələr verməsini qürurla qeyd etmək olar. Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapmasında və siyasi sistemin daha da demokratikləşməsində onların gərəkli və səmərəli fəaliyyətlərini xüsusi vurğulamaq lazımdır. Bu insanlar sabit cəmiyyətin formalaşmasında və dövlətin idarə olunmasında birbaşa iştirak edirlər və ölkəmizin möhtəşəm uğurlarına əhəmiyyətli töhfələr verirlər. Sıraları kəmiyyət və keyfiyyətcə yenilənən partiyamız bu fədakar insanların səmimi və gərgin əməyi sayəsində ölkəmizin daha da qüdrətlənməsi işinə xidmət etməkdədirlər.

Qətiyyətlə söyləmək olar ki, xalqımızın müqəddəs arzularının, sabaha olan inamlarının, müstəqilliyinin və azadlığının təminatçısı kimi yaranan Yeni Azərbaycan Partiyası ötən illər ərzində ümidləri bütünlüklə doğrultmuş, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilmişdir. Dahi insan, qüdrətli dövlət xadimi Heydər Əliyev tərəfindən əsası qoyulmuş, onun milli və ideoloji qayəsinin daşıyıcısı olan partiya bütün tarixi situasiyalarda özünün mübarizliyini nümayiş etdirərək mətinləşmiş, monolit siyasi qüvvə kimi özünü təsdiq etmişdir.

Mən bu gün böyük məmuniyyət hissi ilə partiyamızın ali rəhbərliyini, bütün əqidədaşlarımı, həmçinin təşkilatımızın fəaliyyətinə layiq olduğu dəyəri verən hər kəsi respublikamızın ictimai-siyasi həyatında çox əlamətdar hadisə olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 26 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir və onlara yeni-yeni nailiyyətlər arzulayıram.

Böyük əminliklə söyləyə bilərəm ki, bütün bu illər ərzində inkişafın hərəkətverici qüvvəsi kimi milli mənafeləri istənilən müstəvidə müdafiə etmək üçün yetərli ictimai dəstəyə malik və bu gün 700 mindən artıq üzvü olan YAP öz sıralarını keyfiyyətcə yeniləyərək partiyamızın lideri, ölkə başçısı cənab İlham Əliyevin ətrafında sıx birləşərək cəmiyyətin avanqard siyasi qüvvəsi kimi ölkəmizin daha da qüdrətlənməsinə və xalqımızın həyat səviyyəsinin daha da yüksəldilməsinə sanballı töhfələr verəcəkdir.

### Dövlət və xalq üçün yaranan partiya

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Demokratik, hüquqi, dünyəvi dövlətçiliyin əsas atributlarından sayılan siyasi partiyalar, adətən, obyektiv zərurətdən və milli tələbatdan yaranırlar. 1990-cı illərin əvvəllərində müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu obyektiv şəraitdən irəli gəlmişdir.

Azərbaycanda siyasi qurumların formalaşması prosesi ötən əsrin 80-ci illərinin sonundan başlanan xalq hərəkatının gedişində özünü büruzə vermiş, 1990-cı ilin əvvəllərində bir sıra siyasi təşkilatlar yaranmışdı. Lakin yaradılan qurumlar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bildi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial gərginlik xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Məhz ona görə də Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış lideri Heydər Əliyevin ətrafında birləşdilər.

Xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə ünvanladıqları müraciətdə də həmin dövrün acınacaqlı mənzərəsi öz əksini tapırdı. Ümummilli lider Heydər Əliyev müraciətə cavabında: "Əgər belə partiya yaradılmışsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram" - söyləməklə Azərbaycanın düşdüyü ağır vəziyyətə biganə qalmadığını, hər zaman xalqla bir olduğunu təsdiqlədi.

Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda Naxçıvandan Bakıya gələn Heydər Əliyevin 1993-cü ilin oktyabr ayının 3-də ölkə prezidenti seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Heydər Əliyevin prezident seçilməsi bütün Azərbaycan xalqının gələcəyə ümidlərini artırdı. Çünki xalq gözəl bilirdi ki, məhz Heydər Əliyev ölkəni bürümüş böhrandan, anarxiyadan, özbaşınalıqdan, dövlətçiliyi itirmək təhlükəsindən qurtara bilər. Xalq öz müdrik oğluna inanır və dəstəkləyirdi. Tarixi gedişat Azərbaycan xalqının öz istək və tələbində yanılmadığını, Heydər Əliyevi hakimiyyətə dəvət etməklə ən düzgün addım atdığını sübuta yetirdi. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan bütün təhlükələrdən xilas oldu, dövlətimizin müstəqilliyi təmin edildi, ölkə tənəzzüldən inkişaf yoluna qədəm qoydu.

2003-cü ildən sonra ulu öndər Heydər Əliyevin siyasi yolunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin ötən 15 ildəki əzmkar fəaliyyəti Azərbaycanın onilliklərə bərabər inanılmaz bir inkişaf yolu keçməsini təmin etməklə yanaşı, YAP-ın cəmiyyətdəki alternativsiz qüvvə statusunu möhkəmləndirdi. Bu mənada, YAP-ın güclü siyasi partiya kimi özünü təsdiqləməsi həm də cənab İlham Əliyevin yüksək liderlik keyfiyyətləri ilə şərtlənir.

Azərbaycan tarixində indiyə qədər 700 min üzvü olan siyasi təşkilat olmayıb. Bu, insanların YAP-a, partiyanın yaradıcısı ulu öndər Heydər Əliyevin zəngin siyasi irsinə, YAP-ın sədri, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətin, Azərbaycandakı ictimai-siyasi duruma verdikləri yüksək qiymətin göstəricisidir.

Fərəhli haldır ki, Prezident İlham Əliyev YAP üzvlərinin cəmiyyətdə gedən siyasi və iqtisadi proseslərdə nümayiş etdirdikləri fəallığı yüksək qiymətləndirməklə bərabər, bu yönümdəki fəaliyyəti daha da genişləndirməyi məqsədəuyğun sayır. Dövlət başçısı ölkəmizin əldə etdiyi bütün uğurların müəllifinin mövcud iqtidar, eyni zamanda, hakimiyyətin siyasi istinadgahı olan YAP olduğunu bildirib. Hakim partiyanın cəmiyyətdə böyük nüfuz sahibi olduğunu və onun üzərində şərəfli missiya dayandığını söyləyən Azərbaycan Prezidentinin bu fikirləri YAP-ın fəaliyyətinə verilən dəyər və təşkilatın malik olduğu potensialın dəqiqliklə qiymətləndirilməsidir: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır, Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Hətta digər bütün siyasi qüvvələr birləşsələr, yenə də bizim işimizə, siyasətimizə bunun heç bir təsiri olmayacaqdır".

YAP daim irəli baxan, inkişafda olan partiyadır. 700 mindən artıq üzvü olan partiyamızın sıraları gündən-günə genişlənir. Sevindirici haldır ki, YAP-ın sıralarına qoşulanlar əsasən gənc nəsli təmsil edənlərdir. Onların arasında xaricdə təhsil alan, yüksək elmi biliklərə və dünyagörüşünə malik olan gənclərimiz də kifayət qədər çoxdur. Bu, bizi həm sevindirir, həm də qürurlandırır. Çünki yeni ruhlu gənc nəslimizin formalaşması və onların YAP-a üzv olmaları gələcəyimizin etibarlı əllərdə olmasından xəbər verir.

Onu da qeyd edim ki, 5 il əvvəl - 2013-cü ildə partiyanın V qurultayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın YAP-ın sədr müavini seçilməsi YAP-ın fəaliyyətində və gələcək inkişafında mühüm faktor oldu. Bu seçim ilk növbədə, Azərbaycanın birinci xanımının partiyanın cəmiyyətdəki nüfuzunun yüksəlməsinə verdiyi əvəzsiz töhfələrlə şərtlənir. İnkişaf və sosialyönümlü layihələrə dəstək verən Azərbaycanın birinci xanımı partiya daxilində qadın hərəkatının genişlənməsini təmin etdi. Bu gün YAP üzvləri Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkəmizdə sosial məsələlərin yoluna qoyulması istiqamətində fəaliyyətini yüksək qiymətləndirir və bu prosesə öz töhfələrini verməyə çalışırlar.

2018-ci ilin aprelində keçirilən prezident seçkiləri də deməyə əsas verir ki, YAP bu gün güclü, mütəşəkkil partiya olmaqla yanaşı, xalq tərəfindən ciddi şəkildə dəstəklənir. Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi milli siyasət hər bir vətəndaşın maraq və mənafeyini özündə ehtiva etməklə yanaşı, ölkənin uğurlu gələcəyi ilə bağlı nikbin qənaətləri daha da gücləndirir. Bu gün ölkə vətəndaşlarının mütləq əksəriyyəti əmindir ki, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında bundan sonra da sürətlə inkişaf edəcək, daha qüdrətli və güclü dövlətə çevriləcək.

Yaranmasının 26-cı ildönümünü qeyd etdiyimiz YAP dövlətçilik tariximizdə ümummilli mənafeləri tam əks etdirən, bütün xalqın səfərbərəedici siyasi gücünə çevrilən, birbaşa demokratiya və müstəqillik ideyaları ilə çıxış edən yeganə partiyadır. İndiyədək YAP qədər azərbaycançılıq ideyalarına bağlı olan, siyasi proseslərdə əsl xalq partiyası kimi iştirak edən təşkilat olmayıb, hazırda da yoxdur və gələcəkdə də mümkün deyil. Çünki ümummilli lider Heydər Əliyevin dediyi kimi, YAP dünənin, bu günün və sabahın partiyasıdır.

Yaranmasından qısa müddət sonra iqtidar partiyasına çevrilən YAP-ın geridə qoyduğumuz dövrü həm də partiyamızın uğur hesabatıdır. Əminəm ki, YAP bundan sonra da iqtidar partiyası kimi dövlətə və xalqa ləyaqətlə xidmət edəcək və biz partiyamızın yaranma tarixini hər il yeni-yeni nailiyyətlərlə qeyd edəcəyik.

### Azərbaycanın ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi

**Tahir MİRKİŞİLİ,**
*Milli Məclisin deputatı:*

- 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası dövlət idarəetməsində səriştəsiz və təcrübəsiz qərarlar ucbatından bütün sahələrdə tənəzzülə uğramışdı. Sağlam siyasi qüvvələrin və güclü liderin çatışmaması dövlət quruculuğunun da uğursuzluğuna səbəb olurdu.

Belə bir şəraitdə Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixin başlanğıc nöqtəsi sayıldı. Ulu öndər Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla, Azərbaycanın tarixində yeni dövr başladı. Müxalifət partiyası kimi yaranan YAP dağıdıcı qüvvələrə qarşı qanuni və barışmaz mübarizə apararaq Azərbaycanın xilası üçün fəaliyyət göstərdi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 26 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi və mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar. Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır. Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramının ana xəttini təşkil edir.

Bu gün YAP Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Bu gün Azərbaycan bütün sahələr üzrə tərəqqi etməkdədir. Regionda iqtisadi güc mərkəzinə çevrilən Azərbaycan qlobal layihələr həyata keçirir, dünyanın nüfuzlu təşkilatlarına rəhbərlik edir, humanizm ideyalarını dünyaya yayır.

YAP-ın sədri cənab İlham Əliyevin siyasi nüfuzu və güclü iradəsi bütün regionun inkişafına xidmət edir. Bu uğurların əsasında isə YAP-ın tarixi konsepsiyası və bu konsepsiyanı yaradan ulu öndər Heydər Əliyevin strategiyası dayanır.

***"Azərbaycan"***

# Kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair ictimai müzakirə keçirilib



Noyabrın 20-də Milli Məclisdə kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair ictimai müzakirə keçirilib.

AZƏRTAC xəbər verir ki, ictimai müzakirə Milli Məclis, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə baş tutub.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, ictimai müzakirədə deputatlar, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, vətəndaş cəmiyyətinin nümayəndələri, ekspertlər iştirak edirlər.

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov çıxış edərək kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatının inkişafındakı yerindən danışıb. O, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı istiqamətində digər dövlətlərin təcrübələrindən söz açıb. Tədbirin əhəmiyyətini qeyd edən sədrin müavini bildirib ki, müzakirənin əsas məqsədi kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı sahəsində görülə biləcək işlərlə bağlı təkliflərin verilməsindən ibarətdir.

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə deyib ki, Azərbaycan iqtisadiyyatı bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bu gün sahibkarlıq Azərbaycan iqtisadiyyatının strateji resursudur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə yeni iqtisadi sistem formalaşdı. Bu yeni iqtisadi sistemin aparıcı qüvvəsi kiçik və orta sahibkarlıqdır. Bu gün Azərbaycanın özəl sektorunun payına ümumi daxili məhsulun 80 faizi düşür. Xalq təsərrüfatında, iqtisadiyyat və xidmət sahələrində çalışan işçilərin də əksəriyyəti özəl sektorun payına düşür. Bu müddət ərzində kifayət qədər qanunvericilik bazası formalaşıb, lakin müasir mərhələdə kiçik və orta sahibkarlığın inkişaf imkanlarından daha səmərəli istifadə etmək üçün yeni qanun layihəsinə ehtiyac var. Bugünkü təqdimat, heç şübhəsiz, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına təkan verəcək.

İqtisadiyyat nazirinin müavini Şirzad Abdullayev deyib ki, Azərbaycanda sosial-iqtisadi inkişafın əsasını Prezident İlham Əliyev tərəfindən təmin olunmuş ictimai-siyasi və makroiqtisadi sabitlik təşkil edir. Xüsusilə son illərdə dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, islahatların dərinləşməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən atılan addımlar sahibkarlığın inkişafını təmin edir. Xüsusilə lisenziyaların və icazələrin sayının azaldılması və "ASAN xidmət" vasitəsilə İqtisadiyyat Nazirliyi tərəfindən verilməsi, sahibkarlıq sahəsində aparılan yoxlamaların 2021-ci ilə qədər dayandırılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində önəmli nəticələr əldə olunub. Həyata keçirilən bütün bu islahatlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir.

Nazir müavini vurğulayıb ki, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən uğurlu siyasət həyata keçirilir. Bunun nəticəsidir ki, bu gün artıq kiçik və orta sahibkarlıq iqtisadiyyatın inkişafında lokomotiv rolunu oynayan qüvvəyə çevrilib. Bu sahədə aparılan tədbirlər nəticəsində xüsusilə son illərdə kiçik və orta sahibkarlığın maliyyə dayanıqlığının artırılması, uzunmüddətli və aşağı faizli kreditlərə çıxış imkanlarının genişləndirilməsi, güzəştli kreditlər verilməsi istiqamətində xeyli işlər görülüb. Bu günə qədər güzəştli kreditlərdən istifadə edən 136 min sahibkarın 99 faizi kiçik və orta sahibkardır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov deyib ki, kiçik və orta sahibkarlığın dayanıqlı inkişafı ölkəmizdə iqtisadi siyasətin tərkib hissəsi kimi hər zaman prioritet təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, eləcə də kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun artırılmasına xidmət edəcək. Məlum olduğu kimi, cari il iyunun 26-da Azərbaycan Respublikası Prezidentinin agentliyin fəaliyyətinin təmin edilməsi haqqında imzaladığı fərman kiçik və orta biznes sektorunun inkişafı ilə bağlı köklü dəyişikliklərə səbəb olacaq mühüm tapşırıqları əhatə edir. Əsas məqsədimiz sahibkar məmnunluğuna nail olmaq və fəaliyyətimizi şəffaflıq və operativlik prinsiplərinə uyğun həyata keçirməkdir.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin sahibkarlığın inkişafı istiqamətində müəyyən etdiyi strateji xəttin əsas elementləri "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsində öz əksini tapacaq. Bu qanunun qəbul edilməsi sahibkarlığın hüquqi təminatının gücləndirilməsinə, kiçik və orta sahibkarlığın rolunun artmasına töhfə verəcək.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev kiçik və orta sahibkarlığın inkişafı istiqamətində aparılan geniş qanunvericilik islahatlarından danışıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kiçik və orta biznesin tənzimlənməsi və təşviqi departamentinin müdiri Fuad Məmmədov "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi barədə danışıb. O qeyd edib ki, Prezident İlham Əliyevin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında 2018-ci il 26 iyun tarixli fərmanı ilə beynəlxalq təcrübə nəzərə alınmaqla "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsinin hazırlanması tapşırılıb. Departamentin müdiri dövlətimizin bu tapşırığının icrası istiqamətində görülən işlər barədə məlumat verib. Vurğulanıb ki, kiçik və orta sahibkarlığın inkişafı üçün ona hərtərəfli dəstək göstərilməsi başlıca şərtdir. Sahibkarlığın inkişafına ona dəstək vasitələri ilə nail olunması praktikası artıq Azərbaycanda da var.

Sonra deputatlar, vətəndaş cəmiyyətinin nümayəndələri, ekspertlər öz fikir və təkliflərini səsləndiriblər.

# Daxili İşlər Nazirliyinin geniş kollegiya iclası



Noyabrın 20-də Daxili İşlər Nazirliyində (DİN) "Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov kollegiya iclasını açaraq, müzakirəyə çıxarılan hər iki məsələnin aktual olduğunu və əməliyyat-xidməti fəaliyyətdə mühüm əhəmiyyət kəsb etdiyini xatırladıb. Nazir vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim xüsusi diqqətində və nəzarətində olduğunu, məhz dövlət başçısının tapşırığına əsasən son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Qeyd olunub ki, bu mühüm işin məqsədyönlü təşkili, eyni zamanda, vətəndaşların polis orqanlarına inam və etimadının güclənməsinin, vətəndaş məmnunluğunun təmin edilməsinin başlıca şərtlərindən biridir. Həmçinin insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cəmiyyətin mənəvi dəyərlərinə böyük zərbə vuran, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə görülən işlərin vəziyyətinin müzakirə edilməsinin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinin vacibliyi də vurğulanıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı DİN katibliyinin rəisi, polis general-mayoru Səfər Əliyev məruzə ilə çıxış edib. O bildirib ki, bütövlükdə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərmanın və "Açıq hökumətin təşviqinə dair" Milli Fəaliyyət Planının aidiyyəti müddəalarının icrası uğurla davam etdirilir. Son üç ilə yaxın müddətdə nazirliyin rəhbərliyi tərəfindən 6569, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 2812, habelə ərazi polis orqanlarında 178 mindən çox vətəndaş qəbul edilib. Görülmüş tədbirlərlə cari ilin doqquz ayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 23,7 faiz, nazirliyə daxil olan şikayətlərin sayı 17,7 faiz, o cümlədən təkrar şikayətlərin sayı 25,7 faiz azalıb. Ümumilikdə 55 şəhər və rayonun sakinlərindən polis əməkdaşları barədə daxil olan şikayətlərin sayında nəzərəçarpacaq azalma qeydə alınıb. Həmin dövrdə nazirliyə 2 minə yaxın həm fərdi, həm də kollektiv minnətdarlıq məktubları daxil olub.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov gündəlikdəki ikinci məsələ barədə məruzə edərək bildirib ki, respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin məqsədyönlü təşkilinə, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə nazirlik tərəfindən böyük önəm verilir və davamlı tədbirlər görülür. Yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquqi maarifləndirmə, sağlam həyat tərzinin təbliği mövzularında təkcə cari ilin doqquz ayında 78 şəhər və rayonda 695 görüş keçirilib. Bu tədbirlərin yarıdan çoxunda polis rəisləri digər hüquq mühafizə və səhiyyə orqanlarının nümayəndələri ilə birlikdə iştirak ediblər. Həmin müddətdə narkotiklərlə əlaqədar cinayətlər törətmiş 67 nəfərdən ibarət 28 cinayətkar qrup zərərsizləşdirilib, 117,5 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Qanunsuz dövriyyədən 960 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, habelə 3 kiloqramdan çox sintetik tərkibli psixoaktiv maddələr çıxarılıb. Narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası sahəsində həyata keçirilmiş tədbirlərlə 132 ton çətənə və xaşxaş kolu aşkarlanaraq məhv edilib.

Gündəlikdəki məsələlər ətrafında çıxış edənlər görülmüş işləri, əldə olunmuş nəticələri qeyd etməklə yanaşı, fəaliyyətdə buraxılan bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində kəsərli tədbirlərin həyata keçiriləcəyini bildiriblər.

İclasa yekun vuran daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan hər iki məsələ üzrə fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu vurğulayıb. Nazir qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edib, konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Ramil Usubov "Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli sərəncamının icrası istiqamətində zəruri tədbirlərin görülməsini tələb edib. Nazir həmçinin güclü təsirə malik olan narkotiklərin qanunsuz dövriyyəyə girmədən aşkarlanmasının, onları qaçaqmalçılıq yolu ilə ölkəyə gətirən şəxslərin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin, eləcə də yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın effektivliyinin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Daxili işlər naziri əminliklə bildirib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, asayişin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ili də yaxşı nəticələrlə başa vuracaq.

# Fövqəladə hallar naziri Gəncədə partlayışın baş verdiyi əraziyə gəlib





Noyabrın 20-də səhər saatlarında Gəncə şəhərinin Kəpəz rayonundakı yaşayış binasında baş vermiş uçqunla əlaqədar fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin digər rəhbər şəxsləri hadisə yerinə gəliblər.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Kəmaləddin Heydərov qəza-xilasetmə işlərinin gedişi ilə yaxından tanış olub, xilasetmə tədbirlərinin daha operativ həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verib.

Nazir jurnalistlərə açıqlamasında bildirib ki, vəziyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tam nəzarətindədir. Yəqin ki, binanın sakinləri haqqında müəyyən qərar qəbul ediləcək. Təmizləmə işləri başa çatandan sonra binadakı 36 ailənin hamısı təxliyə ediləcək və müvafiq yerlərdə yerləşdiriləcəklər. Bu ailələr bina sökülüb tikilənə və ya bərpa olunana qədər tam dövlətin qayğısı altında yaşayacaqlar. Kəmaləddin Heydərov qeyd edib ki, hadisə zamanı dağıntılar altında qalan 3 nəfər həlak olub, 1-i isə ağır xəsarət alıb. Xəsarət alan şəxsin müalicəsi davam etdirilir. Hüquq mühafizə orqanlarının əməkdaşları araşdırmanı tam yekunlaşdırmaq üzrədirlər. Binanın vəziyyəti və partlayışın səbəbləri barədə rəylər hazırlanır.

* * *

Noyabrın 20-də səhər saatlarında Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Gəncə şəhərinin Kəpəz rayonunda dördmərtəbəli yaşayış binasında partlayış baş verməsi barədə məlumat daxil olub.

FHN-dən bildiriblər ki, hadisə nəticəsində üç girişdən ibarət binanın birinci girişindəki mənzillər dağılıb. İlkin ehtimala görə, partlayış qaz sızması nəticəsində baş verib.

Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin, Mülki Müdafiə Qoşunlarının və Gəncə Regional Mərkəzinin müvafiq qüvvələri dərhal həmin ünvana cəlb olunub. Digər aidiyyəti dövlət qurumları məlumatlandırılıb. Axtarış işlərinin sürətləndirilməsi üçün əlavə olaraq FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri və kinoloji qrupu təlim keçmiş itlərlə Aviasiya dəstəsinin helikopteri ilə Bakıdan Gəncəyə gətirilib.

Axtarış-xilasetmə işləri nəticəsində dağıntılar altından 1994-cü il təvəllüdlü Cumazadə Cuma Saleh oğlunun, 1971-ci il təvəllüdlü Tağıyeva Nigar Tağı qızının və 1994-cü il təvəllüdlü Heydərov Hüseyn Oktay oğlunun cəsədləri tapılaraq çıxarılıb. Həmçinin 1997-ci il təvəllüdlü Məmmədli Orxan Oktay oğlu yaralı vəziyyətdə aşkarlanaraq xilas edilib.

Əlavə məlumat veriləcək.

# Azərbaycan Polisinin fəaliyyəti dövlətə və xalqa sədaqət nümunəsidir

## Nazir Ramil Usubov daxili işlər orqanlarının 100 illiyi münasibətilə elan olunmuş müsabiqənin qaliblərinə mükafatlar təqdim edib

Azərbaycan Polisinin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlər sırasında tariximizi, həmkarlarımızın çətin və şərəfli xidmətini, vətənə, xalqa, dövlətçiliyimizə sədaqətini, qəhrəmanlığını təcəssüm və tərənnüm edən yaradıcılıq işləri üzrə müsabiqə elan olunmuşdu. Seçimə onlarla yaradıcılıq məhsulu təqdim edilmiş və artıq müsabiqəyə yekun vurulub.



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən aldığımız məlumata görə, "Azərbaycan" qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlinin "İstiqlalın canlı siperləri" yazısı "Ən yaxşı oçerk", AzTV-nin əməkdaşı Tural Məmmədovun "Azərbaycan Polisi - 100" sənədli filmi isə "Ən yaxşı film" nominasiyaları üzrə mükafata layiq görülmüşdür.

Noyabrın 17-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov müsabiqənin qaliblərini qəbul edib.

Nazir mükafatçı jurnalistləri təbrik edərək Azərbaycan Polisinin şanlı tarixini, çətin və şərəfli xidmətini yüksək peşəkarlıqla işıqlandırdıqlarına görə onlara təşəkkürünü bildirib. O, Polisin 100 illiyi münasibətilə elan edilmiş müsabiqənin tam şəffaf şəkildə keçirildiyini, ekspert qrupu tərəfindən tələblərə cavab verən yaradıcılıq nümunələrinin ədalət prinsipləri əsasında müəyyən edildiyini xüsusi vurğulayıb.

Qeyd olunub ki, müsabiqənin şərtlərinə, sənətkarlıq xüsusiyyətlərinə, Azərbaycan Polisinin xidmətini daha layiqincə geniş oxucu kütləsinə və tamaşaçı auditoriyasına təqdim edə bildikləri üçün adı çəkilən jurnalistlər fərqləniblər. Nazir Ramil Usubov keçirilən bu cür tədbirlərin polis-media münasibətlərinin daha da dərinləşməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, ölkəmizdə multikultural dəyərlərin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Müsabiqənin qalibləri yaradıcılıq nümunələrinə yüksək qiymət verdiyinə və səmimi qəbula görə daxili işlər nazirinə minnətdarlıqlarını bildiriblər.

Sonra onlara diplomlar, pul mükafatları təqdim olunub və xatirə şəkli çəkdirilib.

***"Azərbaycan"***

# *Belarus KİV:* Azərbaycan Prezidentinin Belarusa səfəri iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır











Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri bu ölkənin aparıcı kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, BELTA informasiya agentliyi, "Belarus seqodnya" qəzetinin rəsmi saytı Prezident İlham Əliyevin səfərinə dair 40-a yaxın məqalə yayıb. "Sputnik" agentliyi, "Komsomolskaya Pravda", "Arqumentı i faktı", "Narodnaya qazeta", "Respublika" qəzetləri, "Belarus 1", "NTV Belarus" və digər telekanallar, yazılı mətbuat orqanları dövlətimizin başçısının Belarusa səfərinin əhəmiyyəti barədə geniş məlumatlar yayıblar.

Qeyd edilib ki, bu səfər iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır. Yayılan məqalə və süjetlərdə Azərbaycan-Belarus əməkdaşlığından, strateji xarakter daşıyan tərəfdaşlıqdan, əlaqələrin genişləndirilməsində Prezident İlham Əliyevin xidmətlərindən, iki ölkə arasında olan dostluq, qarşılıqlı hörmət və dəstəkdən bəhs edilir.




# "AmCham Azərbaycan"ın tədbirində təhsilin inkişafı ilə bağlı reallaşdırılan işlərdən danışılıb





Noyabrın 20-də "Abşeron Mariott" hotelində təhsil naziri Ceyhun Bayramovun iştirakı ilə Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham Azərbaycan") tərəfindən işgüzar nahar təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ceyhun Bayramov müasir dünyada təhsilin mühüm rolundan danışıb, ölkəmizdə bu sahəyə xüsusi önəm verildiyini vurğulayıb. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əhəmiyyətini qeyd edən nazir Strategiyaya uyğun olaraq təhsil sahəsində reallaşdırılan tədbirlərdən, qazanılan nailiyyətlərdən bəhs edib.

C.Bayramov təhsil sahəsində dövlət-özəl sektor əməkdaşlığının mövcud modelləri və bu istiqamətdə mümkün layihələr haqqında ətraflı məlumat verib.

Tədbirdə "AmCham Azərbaycan"ın prezidenti Nuran Kərimov və icraçı direktoru Natəvan Məmmədova çıxış ediblər. Sonra qurumun üzvləri tərəfindən təqdimatlar olub. Eyni zamanda, Azərbaycana Birgə Yardım Təşkilatının nümayəndələri respublikamızın 22 rayonunda həssas uşaqları dəstəkləmək üçün yeni sosial biznes layihəsini təqdim ediblər.

Qeyd edək ki, "AmCham Azərbaycan"ın işgüzar naharı hər ay təşkil olunur və burada hökumət rəsmiləri, parlament üzvləri və diplomatik korpusun nümayəndələri iştirak edirlər. Azərbaycanda Amerika Ticarət Palatası xarici və yerli biznesin maraqlarını dəstəkləyən və təşviq edən özəl, qeyri-kommersiya əsaslı aparıcı ticarət-sənaye assosiasiyasıdır. 1996-cı ildə yaradılmış "AmCham Azərbaycan" iqtisadiyyatın hər sektorunda fəaliyyət göstərən 280-dən çox üzv və köməkçi şirkəti özündə birləşdirir. Palata ölkədə bütün xarici investisiyaların təxminən 80 faizini, eləcə də yerli investisiyaların mühüm hissəsini təmsil edir.

# İlham Əliyevin "Ermənistanın təcridi siyasəti"nə Lukaşenkodan və Nazarbayevdən böyük dəstək

*Əvvəli 1-ci səh.*





Ermənistanın "İravnuk" qəzeti yazır ki, Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmasa, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil: "Bu günlərdə Minskdə İlham Əliyevlə görüşündə Lukaşenko hər zaman bütün sahələr üzrə Azərbaycanın mövqeyini müdafiə edəcəklərini nümayiş etdirdi. Paşinyana isə heç kim etibar etmir. Bir sözlə, İlham Əliyev Ermənistana növbəti zərbəni Minskdən vurdu".

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan da uzun müddətdir işğalçı ölkəyə çox aydın şəkildə Ermənistanın xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirir. Belarus Respublikasına rəsmi səfəri çərçivəsində mətbuata bəyanatı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib: *"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələlər üzrə Belarusun mövqeyinə görə həm öz adımdan, həm də Azərbaycan xalqı adından xüsusi minnətdarlığımı bildirmək istərdim. Birgə Bəyanatda vurğular dəqiq qoyulub və deyilir ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Biz Belarusa həm bizim, həm də bütün region üçün son dərəcə mühüm olan məsələdə belə obyektiv mövqeyinə görə minnətdarıq. Bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir. Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyli var. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlər arasında memorandum da var. Bu sənəd ən qısa müddətdə Belarusdan hərbi texnikanın növbəti partiyasının alınması üçün müqaviləyə çevriləcək".*

## "Küçə demokratiyasının" qaydaları böyük siyasətdə işləmir

KTMT-nin son toplantısından sonra düşdüyü pərt vəziyyətdən xilas olmaq üçün Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan və onun komandası müxtəlif manevrlər etməyə çalışır. Məsələn, Yerevan təşkilata üzv olan Belarus və Qazaxıstanın Azərbaycanla əlaqələri inkişaf etdirməsini "qeyri-demokratik" addım kimi qələmə verməyə çalışır. Siyasi təhlilçilər hesab edirlər ki, elə bu məqamın özü Paşinyanın qeyri-peşəkarlığının ən yüksək nümunəsidir.

Xatırladaq ki, bundan əvvəl də Paşinyan Ermənistanın Belarus və Qazaxıstandan prezidentlər səviyyəsində izahat tələb edəcəyini bildirib. O, Belarus və Qazaxıstan liderlərini Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ətrafında yaranan vəziyyəti bu təşkilatın üzvü olmayan ölkə ilə, konkret halda - Azərbaycanla müzakirə etməkdə günahlandırıb: "Heç kim belə bəyanatlarla çıxış etmək hüququna malik deyil, çünki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında qərarlar ümumi razılıq əsasında qəbul edilir və biz artıq bununla bağlı mövqeyimizi bildirmişik. Bu necə qarşılana bilər ki, məsələn, mən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmayan hər hansı ölkənin səfirini dəvət edirəm və ona bağlı qapılar formatında keçirilən iclasdan danışıram. Mən ona təəccüblənmişəm ki, 30 il dövlətin rəhbəri statusunda olan insan belə addım atsın. Və mən, əlbəttə, Belarus Prezidentindən izahatları tələb edəcəm, özü də yalnız Belarus Prezidentindən deyil".

Artıq Minsk bu mövqeyə qarşı sərt münasibət sərgiləyib. Belarus Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlaz Paşinyana cavab olaraq qeyd edib: "Böyük siyasətdə "küçə demokratiyası"nın qaydalarını deyil, qəbul edilmiş və tamamilə aydın etiket normalarını rəhbər tutmaq lazımdır. Görünür Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən şəxs özünü cəzalandırmaq, yaxud əfv etmək səlahiyyətlərinə malik beynəlxalq prokuror zənn edir".

Aleksandr Qlaz əlavə edib ki, Ermənistan rəhbərinin bu davranışı ola bilsin, KTM-nin keçmiş baş katibi Yuri Xaçaturovla bağlı məqbul görünə bilər, lakin dövlətlərarası münasibətlərdə tamamilə aydın protokol və etiket qaydaları var: "Yəqin Paşinyan hələ başa düşməyib ki, "küçə demokratiyası"nın qaydaları böyük siyasətdə işləmir. Təəssüf, ümid edirik ki, zaman ötdükcə keçib gedəcək".

## Paşinyanın siyasi naşılığı Ermənistana baha başa gəlir

Digər tərəfdən aydındır ki, Paşinyanın açıqlaması həm onun siyasi naşılığını göstərir, həm də Ermənistanın KTMT-də mövqeyinin ciddiyə nəzərə alınmadığını üzə çıxarır. Erməni ekspert, Avrasiya Ekspertlər Klubunun üzvü Qagik Arutyunyan da bildirir ki, KTMT məsələsində Yerevan təşkilata digər üzv ölkələr üçün arxa plandadır: "Ermənistan bu vəziyyətdə Belarus və Qazaxıstandan heç bir izahat da tələb edə bilməz. Çünki təşkilatda Ermənistanın mövqelərinin zəifləməsinə elə Paşinyan özü səbəb olub. O, onsuz da Rusiya ilə gərgin münasibətlər yaradıb, indi də Belarus və Qazaxıstanla əlaqələri gərginləşdirir. Belə vəziyyət KTMT-də mövqelərimizi daha sürətlə sarsıdır. Bundan qazanan isə KTMT-yə müşahidəçi statusunda qoşulmağa hazırlaşan Azərbaycandır. İlham Əliyevin Belarus səfərində bu məsələlər daha çox diqqət mərkəzində oldu və Bakı ilə Minsk münasibətlərini daha da sıxlaşdıracaqlar. Biz isə bunun əksini edirik".

## "Lukaşenko və Nazarbayev Paşinyana etibar etmir"

Əslində, Azərbaycanla dost münasibətlərinə malik olan Belarusun, eləcə də Qazaxıstanın Nikol Paşinyana etibar etmədiyi, Yerevandakı yeni hakimiyyətin ciddi tərəfdaş kimi qəbul olunmadığını ermənilərin özləri də etiraf edirlər. Bunun sübutu kimi Ermənistanın "İrates" nəşrinin dərc etdiyi xəbəri də göstərmək olar.

KTMT-yə yaxın mənbə nəşrə bildirib ki, prezidentlər Nursultan Nazarbayev və Aleksandr Lukaşenko Nikol Paşinyana etibar etmirlər, onun olduğu yerdə heç vaxt əhəmiyyətli mövzular haqqında danışmırlar: "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Avrasiya İqtisadi İttifaqının iclaslarında real xarakterə malik olan müzakirələr aparılmır. Bir halda ki, burada videokameralar iştirak edir və yad gözlər olur. Əsl söhbətlər və müzakirələr üzv dövlətlərin başçılarının şərəfinə verilən şam yeməkləri zamanı, masanın ətrafında, birgə və ya üz-üzə olur. Belə masalara, xüsusilə Nikolu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqının ali rəhbərliyi dəvət etmir".

Mənbə qeyd edib ki, həqiqətdə Paşinyana sadəcə etibar edilmir, Nazarbayev və Lukaşenko heç vaxt onun yanında əhəmiyyətli mövzularda danışmırlar. Həm də məsələ yalnız Belarus və Qazaxıstanın Ermənistana münasibətindən getmir. Təşkilatda Yerevana ən yaxın hesab edilən Moskvanın Ermənistana münasibəti də artıq əvvəlki deyil: "Rusiyada unutmurlar ki, 20 il boyunca Paşinyan daim Müstəqil Dövlətlər Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqına qarşı çıxırdı".

## "İlham Əliyevlə razılaşmalarımız müqəddəsdir"

İndiki vəziyyətdə Ermənistanın əsas narahatlığı Qazaxıstan və Belarusun Azərbaycana hörməti və rəğbətidir. Onu da qeyd edək ki, Azərbaycanın bu ölkələrlə əməkdaşlığı davamlı şəkildə inkişaf edir. Belarus Prezidenti Aleksandr Lukaşenko bu xüsusda açıq və konkret mövqe bildirib. O, Azərbaycanın bu ölkədəki səfirini qəbul edərkən deyib: "Azərbaycan üçün bizim qapılar açıqdır... Siz bilməlisiniz ki, biz sizin dostunuzuq və həmişə əməkdaşlığa hazırıq. Bizim İlham Əliyevlə razılaşmalarımız müqəddəsdir, razılaşmışıq ki, onları yerinə yetirək. Belarusun Azərbaycanla qapalı mövzusu yoxdur". Halbuki Belarus da daxil olmaqla KTMT-nin digər üzvlərinin Ermənistanla bağlı fikirləri o qədər də yüksək deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Ölkəmizi tanıyaq*

# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

Prezident İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Şamaxı, İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ağsu, Qobustan və Yevlax məktəblərinin şagirdləri noyabrın 20-də Quba və Qusar rayonlarının görməli yerləri ilə tanış olublar.

Şimal bölgəsinə ekskursiyada 400-dən çox IX-XI sinif şagirdi iştirak edir.

Göyçay, Ağsu, Qobustan və Yevlax rayonlarından olan qruplar Qubanın görməli yerlərini gəziblər. Qədim Qubaya ekskursiya zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıqla başlayıb. Məktəblilərin diqqətinə çatdırılıb ki, məscid 1802-ci ildə tikilib. Dini məbədin tikintisi müəyyən fasilələrlə 10 ilə başa çatdırılıb. Bu məscid təkcə Qubada deyil, bütün Şimal-Şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Sonra məktəblilər dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbəyə gəliblər. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də dağ yəhudilərinin ibadət etdikləri sinaqoqla yaxından tanış olublar.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini izləyiblər. Burada onlara Quba xalçaçılıq məktəbi haqqında ətraflı məlumat verilib.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı tur-aksiya iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Məktəblilərin diqqətinə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb.

Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Daha sonra məktəblilər Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Quba şəhərindəki "ABAD Factory" İstehsalat Kompleksi ilə yaxından tanış olublar. Məktəblilərin diqqətinə çatdırılıb ki, ümumi sahəsi 1500 kvadratmetrə yaxın olan müasir istehsalat kompleksində "ABAD"çılar 5 istehsal sahəsi üzrə fəaliyyət göstərir. Bura quru meyvələr, kompot, qənnadı, süd və ət məhsulları daxildir. Sahibkarlıq fəaliyyətinin səmərəli təşkili məqsədilə Quba "ABAD Factory" ərazisində müvafiq infrastruktur yaradılıb. Burada 10 "ABAD"çı ailənin (30 nəfərə yaxın) fəaliyyət göstərməsi nəzərdə tutulub. Məhsul dövriyyəsi çoxaldıqca bu sayın 50 nəfərədək artırılması planlaşdırılır.

Kompleksdə "Pasha Holding"in dəstəyi ilə "ABAD Gastro Village" layihəsi və onun nəzdində olan "Food truck"lər (təkərli qoşqular) parkı salınıb. "ABAD Gastro Village"ın səyyar şəkildə fəaliyyət göstərməsi şimal regionlarında yaradılmış turizm infrastrukturunu daha cəlbedici edir. "Truck"lər 5 istiqamət üzrə satış aparır. Bura dönər, burger, pizza, şirniyyat və "ABAD" etnobutiki daxildir.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları həmçinin "Quba Palace" mehmanxana kompleksində və burada yerləşən Qolf Klubunda da olublar.

Şamaxı, İsmayıllı, Şəki, Oğuz və Qəbələdən olan şagirdlərdən ibarət qruplar isə noyabrın 20-də maarifləndirici tur-aksiya çərçivəsində Azərbaycanın şimal qapısı sayılan Qusar rayonuna gəliblər.

Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qusar şəhərinin girişindəki Bayraq meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olub, Həzrə kəndində "Şeyx Cüneyd" türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, Olimpiya İdman Kompleksi və rəsm qalereyası ilə yaxından tanış olublar.

* * *

Tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu ilə hərəkət edən Ağdaş, Füzuli, Göygöl, Siyəzən və Tovuz rayonlarının məktəblilərindən ibarət qruplar ekskursiyanın üçüncü günündə, noyabrın 20-də qədim Şəkinin tarixi məkanları ilə tanış olublar.

Tur-aksiya iştirakçıları yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzində şəhər rəhbərliyi tərəfindən mehribanlıqla qarşılanıblar.

Şəhər icra hakimiyyəti başçısının müavini Zərinə Cavadova məktəblilərə qədim Şəkinin tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə məlumat verib. Bildirilib ki, 2700 ildən çox yaşı olan bu qədim diyar dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı, həmçinin zəngin irsinin qorunması nəticəsində Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib. Hər il bu şəhərdə beynəlxalq tədbirlər, festivallar keçirilir. Şəki şəhəri 2008-ci ildə Dünya Tarixi Şəhərlər Liqasının üzvü seçilib, 2010-cu ildə Azərbaycanın Sənətkarlıq Paytaxtı elan edilib, 2017-ci ildə isə UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına salınıb.

Qeyd olunub ki, şəhərdə orijinal layihə əsasında yeni tikilən və bu il oktyabrın 29-da istifadəyə verilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Mərkəzdə ulu öndərin mənalı həyatı və çoxşaxəli fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada rəsm və fotostudiyalar, elektron kitabxana, kompüter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək.

Məktəblilərin diqqətinə çatdırılıb ki, tarixən ipəkçilik diyarı kimi tanınan Şəkidə bu sahənin inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Hazırda Şəkidə ipəkçilik ənənələri yenidən bərpa olunur. Bölgənin ən iri sənaye müəssisələrindən olan "Azəripək" MMC bu gün Azərbaycanda ipəkçilik sənayesinin inkişafına çox böyük töhfələr verir.

Sonra beş rayonun məktəbliləri şəhərin qədim tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisinə gəliblər. Məlumat verilib ki, qoruq Şəkiyə gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biridir. Qoruğu əhatələyən əzəmətli qala divarlarının təxminən 1743-1755-ci illərdə tikildiyi ehtimal edilir.

Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı tur-aksiya iştirakçılarında böyük maraq doğurub. Məktəblilərin diqqətinə çatdırılıb ki, saray XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsidir. Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xan Müştağın dövründə, 1761-1762-ci illərdə inşa edilən bu bənzərsiz sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb. Sarayı bəzəyən sadə şəbəkənin bir kvadratmetrinə 5 min, pəncərə şəbəkələrinin hər kvadratmetrinə isə 14 minədək xırda detal və rəngli şüşə düşür.

Məktəblilər sarayın önündə xatirə şəkilləri çəkdiriblər.

Qoruğun ərazisində yeni istifadəyə verilən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq zamanı qeyd edilib ki, keramika sənəti qədim dövrlərdən başlayaraq Azərbaycanda ən geniş yayılmış sənət sahələrindən biri olub. Sənətkarlar diyarı kimi tanınan qədim Şəkidə sənətkarlığın digər növləri kimi, keramika sənəti də bu günə qədər öz əhəmiyyətini saxlayıb. Bildirilib ki, mərkəzin yerləşdiyi bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. Mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb. Keramika və Tətbiqi Sənət Mərkəzinin yaradılmasında məqsəd ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsindən ibarətdir.

Məktəblilər mərkəzin emalatxanalarını gəzib, şəkili sənətkarlarla görüşüb, onların əl işlərinə baxıblar.

Tur-aksiya iştirakçıları sonra qoruğun ərazisində yerləşən V-VI əsrlərə aid memarlıq abidəsi Dairəvi məbədlə tanış olub, sənətkarlıq emalatxanalarına baş çəkiblər.

Ağdaş, Füzuli, Göygöl, Siyəzən və Tovuz rayonlarının məktəbliləri günün ikinci yarısında Zaqatala rayonunun tarixi məkanları ilə tanış olacaqlar.

Dövlət başçısına minnətdarlıq

# Bu, həm maddi kömək, həm də mənəvi təskinlikdir...

## Həlak olmuş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi prosesi davam edir

Dövlətimizin məqsədyönlü siyasətinə uyğun olaraq hərbi sahəyə ayrılan əhəmiyyətli xərclər ölkənin müdafiə qüdrətinin artırılmasına xidmət edir. Bununla yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi, mənzil-məişət problemlərinin həll olunması, onlara verilən güzəşt və imtiyazların miqyasının genişləndirilməsi daim diqqət mərkəzindədir. Bu baxımdan hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli fərmanı da məhz həmin məqsədə xidmət edir. Bu fərmana əsasən, 1997-ci il avqustun 2-dək respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə sözügedən fərmanla müəyyənləşdirilmiş qaydada 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulmuşdur.

Cənab İlham Əliyev prezident seçkiləri ərəfəsində uzun illərdir gündəlikdə duran bu məsələnin həll olunacağını vəd etmişdi. Buna müvafiq fərmanın imzalanması və ödəmələrin verilməsi prosesinin başlanması dövlət başçısının verdiyi vədə sadiq qaldığını təsdiq edir. Bu, bir daha göstərir ki, Azərbaycan Prezidenti hər bir vətəndaşın qayğı və problemlərinə həssaslıqla yanaşır, onların tezliklə aradan qaldırılması üçün əməli tədbirlər görür.

Məlum olduğu kimi, 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması ilə bağlı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, maliyyə təminatı həll edilmiş və sığorta ödənişlərinin verilməsinə başlanmışdır. Həmin qanunun tətbiqindən əvvəl isə respublikanın ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri açıq qalmışdı. Bu səbəbdən də cari il aprelin 19-da Prezident İlham Əliyev məhz həmin kateqoriyaya aid olan hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi barədə fərman imzalamışdır.

Şəhid hərbi qulluqçuların vərəsələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytında sorğu verərək ödəmə almaq hüquqlarını öyrəndikdən sonra notariat kontorlarına müvafiq sənədləri təqdim edir və vərəsəlik şəhadətnaməsi alırlar. Sənədlər notariat kontorları tərəfindən elektron qaydada nazirliyə təqdim olunur. Nazirlikdəki müvafiq işçi qrupu həmin sənədlərin təhlilini aparır.

Bu il noyabrın 14-dən birdəfəlik ödəmənin verilməsinə başlanıb. Proses qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla, şəffaflıq tam təmin edilməklə həyata keçirilir. 150-yə yaxın şəhid hərbi qulluqçuların vərəsələri müvafiq vəsaiti almışlar.

Birdəfəlik ödəmə verilmiş vərəsələrdən biri də Tovuz rayonunun Əlibəyli kənd sakini Navad Rzayevadır. Bu kəndin sakinləri uzun illərdir mənfur düşmənlə üzə-üzə dayanıb öz torpaqlarını, ev-eşiklərini, bağ-bağçalarını mərdliklə müdafiə edirlər. Erməni quldurları bu sərhəd kəndinin igid oğullarından çox zərbələr alıblar. Belə ki, əlibəylililər onlar mərdliklə döyüşür, yaralanır, şəhid olur, amma bir addım da geriyə çəkilmirlər. Namiq Rzayev belə oğullardan biri idi. Könüllü surətdə torpağının, el-obasının müdafiəsinə qalxmışdı. 1992-ci il noyabrın 26-da namərd qonşularımızın növbəti hücumunun qarşısını alarkən mərdliklə həlak oldu.

Şəhidin bacısı Həmayə Mustafayeva deyir ki, birdəfəlik ödəmə vərəsə kimi anası Navad xanıma verilib. Şəhid anası 71 yaşındadır, səhhəti çox zəifdir, indinin özündə də xəstə yatır. Təbii ki, maddi köməyə də ehtiyacı var. Ailə dövlətin vətən, torpaq təəssübü çəkərək canını fəda etmiş igidlərin doğmalarını unutmadığını yüksək dəyərləndirir. Çünki bunu maddi kömək olmaqla yanaşı, həm də böyük mənəvi dəstək sayır. Şəhid ailələri dövlətin bu cür qayğısından təskinlik tapır.

Odur ki, Azərbaycan dövlətinin bu humanist siyasətini gözdən salmaq istəyənlər qoy özlərini qərəzli cəhdləri ilə yormasınlar. Onların məqsədi aydındır: dövlət-vətəndaş münasibətlərinə kölgə salmaq üçün dəridən-qabıqdan çıxır, özlərini "haqqın müdafiəçisi" kimi qələmə verirlər. Belələri bilməlidirlər ki, öz əsassız iddiaları ilə dövlətin işinə qarışmağa və həlak olmuş hərbçilərin, şəhidlərin doğmalarının adından danışmağa onlara heç kim haqq verməyib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığı davam etdirir

Mədəniyyət naziri Əbülfəs Qarayev Nyu Yorkda BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz əl-Nasir ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə alyansın dünya miqyasında həyata keçirdiyi fəaliyyətlər, xüsusilə Prezident İlham Əliyevin "Bakı prosesi" təşəbbüsünün və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşı olması barədə fikir mübadiləsi aparılıb.

Nasir Əbdüləziz əl-Nasir ölkə rəhbərliyinin bu istiqamətdə təşəbbüslərini yüksək qiymətləndirdiyini, tərəfdaşlığın əhəmiyyətini, eləcə də 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun beynəlxalq səviyyədə müsbət əks-səda yaratdığını qeyd edib.



Nazir Əbülfəs Qarayev 2019-cu ildə ölkəmizdə keçiriləcək 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıq işlərinin başlandığını və forumun işində BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

# Soyuq hava soyuq münasibət sevmir

*Əvvəli 1-ci səh.*

Bəs, cari ildə vəziyyət necə olacaq? Bu barədə indidən bir söz demək çətindir. Ancaq "Azəriqaz" İstehsalat Birliyindən və "Azəristilik" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumata görə, ölkə əhalisi qış aylarında fasiləsiz qaz və istiliklə normal təmin ediləcək. Təki belə olsun.

"Azəriqaz"dan aldığımız məlumata görə, hazırda ölkədə əhalinin qazla təminatı 94,2 faizdir. İlin sonunadək bu rəqəmin 95 faizə çatdırılması nəzərdə tutulub. Qeyd edək ki, Azərbaycan ərazisinin müəyyən hissəsində relyef qazlaşdırmaq üçün əlverişli deyil. Problem xüsusilə dağlıq və dağətəyi rayonlara aiddir. Buna baxmayaraq, tədbirlər görülür və bu istiqamətdə "Azəriqaz" İstehsalat Birliyi müvafiq işlər görməyi planlaşdırır.

Qış mövsümü bütün xidmət orqanları, o cümlədən "Azəriqaz" üçün də sınaq dövrüdür. Yəni, bu mövsümdə qaz həm də əsas istilik mənbəyinə çevrilir. Bu isə o deməkdir ki, qaza olan tələbat kəskin artır, şəbəkədə gərginlik yaranır. Buna görə də qaz xətlərinin və qazpaylayıcı şəbəkələrin saz vəziyyətə gətirilməsi, onların daim nəzarətdə saxlanması tələb olunur. Bu səbəbdən də qışa yay fəslindən hazırlaşmaq lazımdır.

"Azəriqaz" İstehsalat Birliyi tərəfindən 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar tərtib edilən proqrama uyğun olaraq, cari ilin may ayından etibarən 108,12 kilometr uzunluğunda qaz kəmərləri dayaqlar üzərinə qaldırılaraq korroziyadan mühafizə olunmaq üçün rənglənib, 560 qaztənzimləyicisi, 576 siyirtmə yenisi ilə əvəz edilib. Eyni zamanda, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün 2848 kilometr yeni qaz kəməri çəkilib, şəbəkənin təhlükəsiz və normal rejimdə istismarının təmini üçün 208,8 kilometr qaz kəməri əsaslı təmir olunub. Aparılan tikinti-quraşdırma işləri sayəsində Ağstafa, Ağcabədi, Ağsu, İsmayıllı, Bərdə, Tərtər, Zərdab, Kürdəmir, Qax, Quba, Şabran, Siyəzən, Şəmkir, Şamaxı, Şəki, Göyçay, Göygöl, Ucar, Xaçmaz, Beyləqan, Yevlax, Lerik, Lənkəran, Sabirabad, Saatlı, Salyan, Neftçala, Cəlilabad və Masallı rayonlarında 99 yaşayış məntəqəsi qazlaşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "bir pilləli" tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicisindən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına imkan verir. Cari il həmçinin 453 çoxmərtəbəli bina (22 min 75 mənzil) qazla təmin olunub.

"Azəristilik" Açıq Səhmdar Cəmiyyəti də xidmət sahəsinə və coğrafiyasına görə "Azəriqaz" İstehsalat Birliyi kimi ölkə üçün əhəmiyyətli xidmət sahələrindən sayılır. Bu qurumun normal xidmət göstərməsi isə digər iki qurumdan - "Azəriqaz" İB-dən və "Azərsu" ASC-dən asılıdır. Yəni, istilik sistemlərinin normal işləməsi üçün qaz və su ilə təminat əsas şərtdir. Biz dəfələrlə "Azəristilik" ASC ilə "Azəriqaz" İB arasında alınan qazın ödənişi ilə bağlı mübahisələrin şahidi olmuşuq. Amma ümid edirik ki, bu mövsümdə belə mübahisələr olmayacaq və hər iki qurum mövsüm ərzində abonentlərə normal xidmət göstərəcək. Bu, ASC-dən verilən məlumatda da vurğulanır. Bildirilir ki, mövsüm ərzində işləməsi nəzərdə tutulan bütün qazanxana və istilik məntəqələrində nasoslar, elektrik mühərrikləri təmir olunub, qazanlar və istilik mübadilə aparatları təmizlənib, nəzarət-ölçü cihazları və elektrik avadanlıqları dəyişdirilib, sazlanıb, eləcə də magistral və məhəllədaxili istilik xətləri təzyiqlə yoxlanılaraq sınaqdan keçirilib. Qış mövsümündə problem yarada biləcək istilik xətləri dəyişdirilərək təzələnib, qazanxanalar ehtiyat qazan və nasoslarla təmin edilib.

Ümumiyyətlə, mövsüm ərzində ASC-yə məxsus 550 qazanxana istismar edilməklə 3800 yaşayış binası, 180 mindən çox mənzil, 290 məktəb, 150 uşaq bağçası, 160 səhiyyə müəssisəsi və 1300-ə yaxın sosial və təsərrüfat obyektlərinin istiliklə təmin edilməsi nəzərdə tutulur. Mövsümə hazırlıqla əlaqədar qazanxana, istilik şəbəkələri, magistral və məhəllədaxili istilik kəmərlərinin, nəzarət-ölçü cihazları və avtomatika, qaz, elektrik-nəqliyyat təsərrüfatlarının, eləcə də digər istehsal təyinatlı avadanlıqların istismara hazırlanması prosesi başa çatıb.

Əsas mübahisə doğuran məsələlərdən biri də istiliyin hansı tarixdə verilməsidir. Bu mövzu dəfələrlə müzakirə olunub, mütəxəssislər fikirlərini bildiriblər. Amma hələ də dağ və dağətəyi rayonlarda istiliyin noyabrın 1-dən, Bakı şəhərində isə 15-dən verilməsi qrafiki qüvvədədir.

Etiraf edək ki, bu, keçmiş İttifaqdan qalmış qrafikdir. Artıq 27 ildir olmayan ölkənin təsərrüfat qaydasını dəyişmək istəyənin indiyədək tapılmaması özlüyündə çox qəribə haldır. Qəribə həm də mövsümün havanın temperaturu ilə yox, hansısa sovet məmurunun nə vaxtsa tərtib etdiyi cədvəllə başlamasıdır. Cari ildə əgər noyabrın 15-nədək kimsə, yaxud kimlərsə evdə, məktəbdə, xəstəxanada soyuqdan əziyyət çəkdiyindən şikayətçi olmamışsa, bunun səbəbi həmin cədvəli tərtib edən keçmiş məmurun uzaqgörənliyi deyil, havaların mülayim keçməsi olmuşdur. Havalarsa həmişə biz istəyən kimi keçmir. Deməli, bu qrafik məsələsinə son qoyulmalı, hansı əraziyə nə vaxt istilik verilməsi yerli icra orqanlarının və təchizat qurumlarının səlahiyyətlərinə buraxılmalıdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan sivilizasiyalararası əməkdaşlığın ən uğurlu platformasıdır

*Əvvəli 1-ci səh.*

Bizim əsl azərbaycanlı olmaq kimi dəyərləndirdiyimiz bu yanaşmaya isə dünya tolerantlıq deyir...

### Milli-mənəvi dəyərlərimizin unikallığı

Milli-mənəvi dəyərlərimizin özəlliyi, unikallığı ondadır ki, əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar. Bunu ölkəmizdə mövcud olan və müxtəlif inanclara məxsus tarixi, dini abidələr əyani sübut edir.

Məsələn, tarixdə ilk din olan Zərdüştlüyün qədim atəşpərəstlik məbədi Bakıda, Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi Şəki yaxınlığında və müsəlman aləminin ən qədim ibadətgahlarından biri olan, 743-cü ildə tikilmiş məscid Şamaxıda yerləşir. Bunlar isə Azərbaycanın bütün dinlərin, inancların qovuşduğu bir məkan olmasına əyani nümunədir. Müstəqillik dövrü ərzində Azərbaycanda 2 mindən çox məscid tikilib, bərpa edilib və xalqın istifadəsinə verilib. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və digər məscidlər yenidən qurulub, əsaslı təmir edilib. 2014-cü ildə ölkəmizin ən böyük məscidi - Heydər Məscidi tikilib ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq abidəsidir.

### Çayın bir sahilində sinaqoqlar, o birində məscidlər

Ölkədə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması Azərbaycandakı dini müxtəlifliyin və bu fərqliliyə insanların tolerant münasibətinin bariz nümunəsidir.

Azərbaycanda tarixən bərqərar olmuş tolerant cəmiyyət, multikultural dəyərlər, milli və dini ayrı-seçkiliyə yol verilməməsi burada məskunlaşmış yəhudilərə də öz varlığını qoruyub saxlamağa əlverişli imkan yaradıb. Quba İsraildən kənarda yəhudilərin ən sıx məskunlaşdığı şəhərdir. Buradakı Qırmızı Qəsəbə adlanan yaşayış məskəni isə bütün postsovet məkanında dağ yəhudilərinin yığcam yaşadıqları yeganə məkandır.

Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir ki, təkcə bu faktın özü Azərbaycanda tolerantlıq ənənələrinin hansı səviyyədə olduğunu göz önünə sərir.

Ölkəmizdə dövlət qayğısı ilə əhatə olunan azsaylı qədim xalqlardan biri də Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərdir. Dünyada udilərin sayı 10000-ə yaxındır ki, onların da təqribən 7000-i Azərbaycandadır. Əsrlər boyu azərbaycanlılarla udilər dinc şəraitdə yanaşı yaşamış, onların arasında daim dostluq əlaqələri və qarşılıqlı anlaşma mövcud olmuşdur. 2006-cı ilin may ayında Qəbələ rayonunun Nic qəsəbəsində Müqəddəs Yelisey adlı qədim Alban kilsəsinin yerində Çotari adlı Alban-udi kilsəsi tikilib və bu qədim xalqın istifadəsinə verilib.

Ölkəmizdə tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər kimi bir çox etnik qruplar da yaşayır. Onlar özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlayır.

### Bəşəri dəyərlərə Heydər Əliyev Fondunun misilsiz töhfələri

Azərbaycanın multikulturalizm, tolerantlıq kimi bəşəri dəyərlərə münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə praktik müstəvidə də özünü göstərir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti nəticəsində tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizin Şərqlə Qərb arasında körpü rolu oynaması daha da aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondunun bütün dinlərə xüsusi diqqət göstərməsi, Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı dünya ictimaiyyətinə Azərbaycanın dəyərli töhfəsi kimi qiymətləndirilməlidir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi irimiqyaslı layihələrdən olan Romada Müqəddəs Marçellinio və Pietro, həmçin Müqəddəs Sebastian katakombalarının bərpası xristian dünyasında böyük əks-səda doğurdu.

### Tolerantlıq və multikulturalizmin mütərəqqi modeli

Bu gün ölkəmizdə yürüdülən dövlət siyasətinin başlıca məqsədi insanların sülh şəraitində yaşamasını təmin etmək üçün tolerantlıq, multikultural dəyərlərin təbliğ edilməsidir. Bu yönümdə atılan addımlar isə nəinki Azərbaycana və ölkəmizdəki dini konfessiyalara, bütünlüklə müsəlman aləmi ilə digər inanclar arasında münasibətlərə, eyni zamanda, bütün dünyada gedən proseslərə təsir göstərəcək əhəmiyyətli tədbirlərdir.

Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" və 2017- ci ili "İslam həmrəyliyi ili" elan etməsi ölkədə əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərin, sülhün, dostluğun, birgə yaşayışın dünyaya ixrac edilməsinə öz mühüm töhfəsini verdi.

Prezidentin islam həmrəyliyinə çağırışı bütün islam dünyasında xalqların və ölkələrin iqtisadi, mədəni, elmi əməkdaşlığına, eyni zamanda, islam dininin irəli sürdüyü bərabərlik, ədalət, mənəviyyat, insanpərvərlik və sülh ideyalarının daha da diqqət mərkəzinə çəkilməsinə xidmət etdi. Bu mühüm beynəlxalq tədbirlər bir daha dünyaya göstərdi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, eyni səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan nəinki ölkə daxilində etnoslararası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyir, həm də dünyaya tolerantlıq və multikulturalizmin mütərəqqi modelini təqdim edir.

Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları isə təkcə idman yarışı kimi deyil, eyni zamanda, bütün islam dünyasının birlik, həmrəylik günləri kimi yaddaşlarda silinməz izlər buraxdı.

Belə mühüm və əlamətdar hadisələrdən biri də ISESCO-nun dəstəyi ilə 2009-cu ildə Bakı şəhərinin, 2018-ci ildə isə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi idi. O cümlədən, Azərbaycanda qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların keçirilməsi də yüksək önəm daşıyır.

Bu günlərdə altıncısı baş tutan yekunlaşan Bakı Beynəlxalq Humanitar Forumu bu qəbildən olan, aktual, ümumbəşəri, humanitar məsələlərin müzakirə edildiyi nüfuzlu tədbirlərdəndir. 2011-ci ildən keçirilən və ənənə halı alan forum hər dəfə 100-ə yaxın ölkədən 500-dən çox tanınmış ictimai-siyasi xadimi, görkəmli elm, mədəniyyət və incəsənət nümayəndəsini bir araya gətirir, müxtəlif ölkələrin, regionların və nəsillərin nümayəndələrinin ünsiyyət qurmasına, diskussiya aparmasına və ümumi nəticələrə gəlməsinə şərait yaradır.

### Qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb

Təbii ki, bütün bu uğurlara çatmaq üçün öncə ölkə daxilində dini həmrəyliyə nail olmaq, dövlət-din münasibətlərini balanslı şəkildə normallaşdırmaq lazım idi ki, bunu da dövlətimiz müstəqillik illərindən başlayaraq uğurla davam etdirdi.

Ulu öndər Heydər Əliyev çıxışlarının birində vurğulayırdı ki, biz dünyəvi dövlətik, amma dindən ayrı deyilik. Müstəqillik dövrümüzün çətin dövrlərində ümummilli lider müəyyən dini mərasimlərdə iştirak edir, məscidlərə gedir, dövlətin bu sahədə strateji xəttini izah edirdi. Bunun nəticəsidir ki, o dövrdə dövlət-din münasibətlərində yaranmış uçurum aradan qaldırıldı, dinin birləşdirici gücündən maksimum istifadə edildi.

Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Azərbaycan xalqı öz milli və dini bayramlarını azad, sərbəst qeyd etmək hüququ əldə etdi, ölkə vətəndaşlarının müqəddəs yerlərə ziyarətinin təşkili üçün şərait yaradıldı. İllər boyu baxımsızlıqdan uçub dağılmış pir və ziyarətgahlar fəaliyyətini yenidən bərpa etdi, gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Bu gün də Heydər Əliyevin ölməz ideyalarını və siyasətini davam etdirən Prezident İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə Azərbaycanda yeni məscidlər tikilir, qurulur, bərpa olunur. Dövlət başçısı islam bayramlarını dindarlar və müsəlman ölkələrinin səfirləri ilə birgə qeyd edir. Özü və ailə üzvləri də müqəddəs Kəbəni dəfələrlə ziyarət ediblər.

### İslamı zərərli təsirlərdən qoruyan mükəmməl Azərbaycan modeli

Müstəqillik illəri ərzində çox istiqamətlər üzrə nümunələr, örnəklər yaradan ölkəmizdə islamın cəmiyyət və dövlət həyatına ən effektiv təsirlərini təmin edən, islamı zərərli və dağıdıcı təsirlərdən qoruyan mükəmməl Azərbaycan modeli də formalaşıb. Prezident İlham Əliyevin xüsusi diqqət ayırdığı məsələlər - dini maarifçilik və ruhani zümrənin məzhəblərarası ünsiyyətə, əməkdaşlığa təşviq edilməsi Azərbaycanda dini radikalizmin, ekstremizmin yayılmasına qarşı da əhəmiyyətli sipərdir.

Qeyd edək ki, bu sahədə dövlət siyasətini həyata keçirən əsas strukturun - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xüsusən son illər ərzindəki fəaliyyəti də diqqətçəkəndir. Komitənin sədri Mübariz Qurbanlı da qeyd edir ki, bu gün hər bir Azərbaycan vətəndaşı Konstitusiyanın, "Dini etiqad azadlığı haqqında" qanunun ona verdiyi imkanlardan istifadə edərək etiqad azadlığını tam yaşaya bilir: "Ölkədə fəaliyyət göstərən konfessiyalar arasında nəinki hər hansı qarşıdurma müşahidə olunur, əksinə, onlar arasındakı münasibətlər artıq birgə əməkdaşlıq mərhələsindən yeni dövrə - qarşılıqlı yardımlaşma, empatiya mərhələsinə keçmişdir. Belə unikal faktlar bu gün dünyanın bir çox ölkəsində müşahidə etdiyimiz vəziyyətin - nəinki fərqli dinlərin mənsublarının, hətta eyni dinin müxtəlif məzhəblərinin nümayəndələrinin bir-birinə az qala, düşmən gözü ilə baxması fonunda olduqca ürəkaçan və qürurvericidir".

2017-ci ildə Prezidentin sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması isə ölkəmizdə mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin göstəricisidir.

### Artıq ölkəmizdə məzhəblərüstü, mövhumatdan, xurafatdan uzaq tədris sistemi qurulub

Bu gün dünyada islamı terrorizmin, cəhalətin ünvanı kimi təqdim edən və buna qismən də olsa nail olan məlum şəbəkələr var. Təəssüf ki, onların yaratdıqları mənfi imic əslində islamın daxilindəki mənfi durumdan, parçalanmadan, maarifçilikdən uzaq düşməsindən qaynaqlanır.

Müsəlman dəyərlərinin təbliği adı altında 1400 il öncəki yaşam və həyat tərzini zorən müasir insanlara tətbiq etmək, bəzən məscidləri, ibadətgahları "siyasi mərkəzlərə" çevirmək, bir qrup avantüristin Allahın, Quranın, peyğəmbərin adından "hökm" verərək dövlətləri parçalamaq, xalqları məhvə sürükləmək, hakimiyyətə gəlmək məqsədilə islamı təhrif etmək - budur günümüzün reallıqları...

Xalqımız həmişə öz elmi, biliyi ilə seçilən insanları molla adlandırıb, bütün problemlərinin həllində, hansısa çətinliklərində çıxış yolu göstərməsi üçün məhz onlara müraciət edib, amma açığını demək lazımdır ki, zamanla məscidlərdə, dini ocaqlarda təsadüfi insanlar da molla kimi fəaliyyət göstərməyə başlayıblar. Araşdırmalar göstərir ki, hərdən xaricdə dini təhsil alıb gələnlərin bir qismi o ölkələrdəki zərərli dini-ideoloji təsirlərə məruz qalıb, yaxud həmin dövlətlərdəki dini adət-ənənələri Azərbaycana qayıtdıqdan sonra tətbiq etməyə çalışıblar. Eyni zamanda, dinə xurafat, mövhumat elementlərinin daxil edilməsi kimi hallar da müşahidə edilib.

Artıq ölkəmizdə məzhəblərüstü, mövhümatdan, xurafatdan uzaq tədris sistemi qurulub. Bu ilin əvvəlində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində İlahiyyat İnstitutunun yaradılması ilə bağlı Azərbaycan Prezidentinin sərəncamı sözün əsl mənasında, islam maarifçiliyinə misilsiz töhfədir. İnstitutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

### Ən uğurlu model məhz Azərbaycandadır

Din kütləvidir və kütləviliyin zərərinin qarşısını almaq çox zəruridir. Elə də olur ki, din ölkələrin müstəqilliyini, dövlətçiliyini məhv etmiş bir gücə çevrilir, amma din bizim üçün zərərli faktor olmalı deyil. Din bizi daha da birləşdirən, kamilləşdirən, ölkələrin inkişafına töhfə verəcək bir amil olmalıdır.

İslam dini əslində, özündə bunları ehtiva edir, sadəcə olaraq, tətbiq etmək lazımdır ki, dünyada da bunun ən uğurlu modeli məhz Azərbaycandadır. Ölkəmizdə dinlə bağlı düzgün dövlət siyasətinin formalaşdırılması, dini maarifçiliyin yüksək səviyyədə təşəkkül tapması vətəndaşlarımızın dini şüur səviyyəsini, islama doğru istiqamətlərdən yanaşmasını və baxışını təkmilləşdirib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

İsmayıllı Rayon
İcra Hakimiyyəti
Təkliflər sorğusu elan edir

İsmayıllı Rayon İcra Hakimiyyəti, İsmayıllı şəhərində 48 mənzilli yaşayış binasının tikinti işlərinin satın alınması məqsədi ilə təkliflər sorğusu elan edir.

Maraqlanan təşkilatlar təkliflərini 29 noyabr 2018-ci il tarixdə saat 18:00-a qədər İsmayıllı Rayon İcra Hakimiyyətinin Tender komissiyasına təqdim edə bilər.

Zərflər 30 noyabr 2018-ci il tarixdə saat 11:00-da tender komissiyası tərəfindən açılacaq.

**Əlaqələndirici şəxs:**
**Abdullayev Vüsal Həsənağa oğlu**
**Tel: (020)285-69-77**

*Tender komissiyası*

İsmayıllı Rayon
İcra Hakimiyyəti
Təkliflər sorğusu elan edir

İsmayıllı Rayon İcra Hakimiyyəti, İsmayıllı şəhərində 100 yerlik uşaq bağçasının tikinti işlərinin satın alınması məqsədi ilə təkliflər sorğusu elan edir.

Maraqlanan təşkilatlar təkliflərini 29 noyabr 2018-ci il tarixdə saat 18:00-a qədər İsmayıllı Rayon İcra Hakimiyyətinin Tender komissiyasına təqdim edə bilər.

Zərflər 30 noyabr 2018-ci il tarixdə saat 12:00-da tender komissiyası tərəfindən açılacaq.

**Əlaqələndirici şəxs:**
**Abdullayev Vüsal Həsənağa oğlu**
**Tel: (020)285-69-77**

*Tender komissiyası*

*Təkrar*

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
"Azərpoçt" MMC üzrə
əsaslı təmir işlərinin aparılmasına dair
açıq tender elan edir

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT 1.** Poçt Daşıma Mərkəzinin inzibati binasının sanitar qovşaqlarının və zirzəminin əsaslı təmiri.

**LOT 2.** "Azərpoçt" MMC-nin inzibati binasında əsaslı təmir işləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən Əsas vəsaitlərin İdarəolunması şöbəsindən ala bilərlər.

**I LOT üzrə - 200 manat**
**II LOT üzrə - 200 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M/H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ46AZPO99995381000420000094**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **07 dekabr 2018-ci il saat 17:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **18 dekabr 2018-ci il saat 17:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **19 dekabr 2018-ci il saat 11:00**-da Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*


# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Fransada etiraz aksiyalarında 528 nəfər yaralanıb




Fransada avtomobil yanacağının qiymətinin artmasına etiraz əlaməti olaraq keçirilmiş aksiyalar zamanı 528 nəfər xəsarət almışdır. Bu barədə ölkənin daxili işlər naziri Kristof Kastanerə istinadən BFMTV telekanalı xəbər verir.

Nazirin dediyinə görə, yaralılardan 17-nin vəziyyəti ağırdır. Zərərçəkənlər arasında hüquq-mühafizə orqanlarının 92 əməkdaşı da var. Kastaner etirazçıların fəallığının azaldığını bildirmişdir. Belə ki, sraşagünkü nümayişlərə 27 min nəfər çıxmışdır.

Fransada etiraz aksiyaları ötən şənbə günü başlamışdır. Buna səbəb hökumətin gələn il dizel yanacağına və benzinə tətbiq edilən vergini artırmaq qərarı olmuşdur. Hakimiyyət orqanları bunu ətraf mühitin mühafizəsi ilə izah edir.

Etiraz aksiyalarında 300 min nəfərdən çox adam iştirak etmişdir. Onlar yolları və yanacaq anbarlarını bloklamışdılar.

### Ağ ev jurnalistlər üçün qaydaları sərtləşdirir



CNN-nin reportyoru Cim Akosta ilə münaqişədən sonra ABŞ Prezidentinin administrasiyası Ağ evdə mətbuat konfransları zamanı jurnalistlər üçün yeni qaydalar tətbiq edir. Bu barədə Vaşinqtonda Donald Trampın mətbuat katibi Sara Sanders məlumat vermişdir.

Sandersin dediyinə görə, bundan sonra hər jurnalistə yalnız bir sualla müraciət etməyə icazə veriləcək. Əlavə suallar isə Prezidentin razılığından sonra verilə bilər. Yeni qaydalara riayət etməyənlər akkreditasiyadan məhrum olunacaqlar.

Mətbuat katibi bildirmişdir ki, Ağ ev məlum münaqişə ilə əlaqədar geri çəkilmək qərarı vermiş və Cim Akostanın akkreditasiyası bərpa olunmuşdur. Bundan sonra CNN noyabrın 13-də Vaşinqtondakı federal məhkəmədə Trampa və onun administrasiyasının bir neçə əməkdaşına qarşı qaldırdığı iddianı geri götürmüşdür.

Akosta ilə Tramp arasında münaqişə noyabrın 7-də keçirilmiş mətbuat konfransı zamanı baş vermişdir. Jurnalistin ABŞ liderinə "miqrantlar karvanı" ilə bağlı sualı, habelə Rusiyanın 2016-cı il seçkilərinə müdaxiləsini xatırlatması Trampın xoşuna gəlməmişdi. Bundan sonra Tramp CNN-nin jurnalistlərini "xalq düşmənləri" adlandırmış və Cim Akosta akkreditasiyadan məhrum edilmişdi.

### "Nissan" və "Renault"un başçısı Yaponiyada həbs olundu



"Nissan" və "Renault" avtomobil konsernlərinin başçısı Karlos Qon Yaponiyanın maliyyə qanunvericiliyini pozmaqda şübhəli bilinərək həmin ölkədə həbs olunmuşdur. Bu barədə yerli "İomiuri" qəzeti xəbər verir.

Qon vergidən yayınmaq üçün öz ödənişlərinin məbləği barədə bilərəkdən təhrif olunmuş məlumat verməkdə şübhəli bilinir. KİV-in xəbərinə görə, Qonun qanunu pozması barədə polisə "Nissan"da çalışan xəbərçi məlumat vermişdir.

Gözlənildiyinə görə, yaxın vaxtlarda "Nissan"ın Direktorlar Şurasının iclasında Karlos Qonun və şura üzvlərindən biri - Qreq Kellinin istefası tələb olunacaq.

### Aİ ölkələri hərbi əməkdaşlığı genişləndirir



Avropa İttifaqı (Aİ) dövlətləri müdafiə sahəsində daimi əməkdaşlığı genişləndirmək barədə razılaşma əldə etmişdir. Brüsseldə keçirilmiş görüşdə Aİ ölkələrinin xarici işlər və müdafiə nazirləri "daimi struktur əməkdaşlığı" - Permanent Structured Cooperation (PESCO) çərçivəsində 17 layihənin reallaşdırılmasını bəyənmişlər.

Layihələr əsasən yeni silah sistemlərinin hazırlanması və xüsusi xidmət orqanları əməkdaşlarının ixtisaslarının artırılması üçün təhsil müəssisələrinin yaradılmasına aiddir. Məsələn, Almaniya hərbi bazalardan birgə istifadə layihəsində iştirak edir. Bundan əlavə, AFR hökumətinin dəstəklədiyi pilotsuz uçuş aparatları və "Tiger Mark III" döyüş helikopterlərinin hazırlanması layihələri PESCO çərçivəsində həyata keçiriləcək. Almaniyanın müdafiə naziri Ursula fon der Lyayenin dediyinə görə, bu, Avropa ordusunun yaradılması istiqamətində daha bir addımdır.

"Daimi struktur əməkdaşlığı" ötən ilin noyabrında başlamışdır. Ona Aİ-nin 23 ölkəsi qoşulmuşdur. Layihəni Danimarka, İrlandiya, Malta, Portuqaliya və gələn ilin martında Aİ-ni tərk etmək niyyətində olan Böyük Britaniya dəstəkləməmişdir.

### Qvatemalada minlərlə adam təxliyə edildi

Qvatemalada "Fueqo" vulkanının püskürməsi üzündən minlərlə adam təxliyə edilmişdir. Bu barədə BBC xəbər verir.

Paytaxtın 30 kilometrliyində yerləşən, hündürlüyü təxminən 3800 metr olan "Fueqo" Latın Amerikasında ən fəal vulkanlardandır. İyun ayında onun püskürməsi azı 190 nəfərin ölümünə, 230 nəfərdən çox adamın itkin düşməsinə səbəb olmuşdur.

Təbii fəlakətlərin fəsadları ilə mübarizə üzrə milli əlaqələndirmə mərkəzinin (CONRED) məlumatına görə, vulkan 7 kilometrədək hündürlüyə kül atır. Onun kraterindən çıxan lava axınının uzunluğu 3 kilometrə çatmışdır.

### Koreya müharibəsində həlak olmuş ABŞ əsgərlərinin xatirəsi Seulda anılıb

Cənubi Koreyada 1950-1953-cü illərdə Koreya müharibəsində həlak olmuş və sonradan cəsədlərinin qalıqları tapılan hərbçilərin xatirəsinə həsr olunan mərasim keçirilib.

Yonhap agentliyi xəbər ki, cəsədlərin qalıqlarının 1951-ci ildə Seuldan 175 kilometr şimal-şərqdə yerləşən Yanqu qəsəbəsi ərazisində döyüşlərdə öldürülmüş ABŞ ordusunun 7-ci diviziyasının hərbçilərinə aid olduğu güman edilir.

BMT qoşunlarının komandanı general Robert Abrahams bildirib ki, cəsədlərin qalıqları ABŞ Müdafiə Departamentinin və Cənubi Koreyanın döyüşlərdə ölmüş, itkin düşmüş və əsir götürülmüş şəxslərlə iş üzrə agentliyinin birgə səyləri nəticəsində tapılıb.

Qeyd edək ki, ABŞ tərəfinin məlumatına əsasən, Koreya müharibəsində təxminən 5300 ABŞ hərbçisi itkin düşüb. Cənubi Koreya ərazisində müxtəlif vaxtlarda bir neçə ABŞ hərbçisinin cəsədinin qalıqları tapılıb.

## Yığım başa çatmasa da, ötən ilin son nəticəsi üstələndi



Pambıq yığımı mövsümünün bir həftəsi də geridə qaldı. Ötən həftə hava sarıdan pambıq tədarükü üçün əlverişli keçməsə də, temperaturun normadan yüksək olması tarlalarda yığımı davam etdirməyə imkan verdi. Onu da qeyd edək ki, bu imkanı yüksək temperaturdan savayı yaradan səbəblərdən biri də, kolların üzərində açılmamış və ya açılmaqda olan qozaların çoxluğudur. Bu isə həm səpilmiş çiyidin sortu, həm də sahələrə düzgün aqrotexniki qulluq göstərilməsi ilə bağlı olan nəticədir ki, sonda da onların hər ikisi yüksək məhsuldarlığı təmin edir.

Əlihüseyn Hacıyevi təcrübəli pambıqçı kimi nəinki Neftçalada, eyni zamanda, qonşu rayonlarda yaxşı tanıyırlar. 65 yaşlı bu torpaq və zəhmət adamı ötən mövsüm pambıqçılıqda əldə etdiyi nailiyyətə görə Prezidentin sərəncamı ilə "Əmək" ordeninə layiq görülüb. Özü də bu yüksək dövlət təltifi Ə.Hacıyevə Prezidentin onun sahəsində işi ilə tanışlıqdan sonra verilib. Amma sözümüzün canı bu deyil. Bölgə müxbirimiz xəbər verir ki, Əlihüseyn kişi bu ilin pambıq yığımını yekunlaşdırıb və orta hesabla hər hektardan nə az, nə çox - 69,7 sentner məhsul götürüb. Bunu Azərbaycanın pambıqçılıq tarixində rekord göstərici kimi qəbul edə bilərik, amma hələlik. Çünki artıq ölkənin aqrar sektorunda istehsalı artırmaq üçün məhsuldarlığın yüksəldilməsi əsas götürülür və bu istiqamətdə konkret tədbirlər həyata keçirilir.

**20.11.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 20 noyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **211197,66** | **184440,01** | **114,5%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 21689,42 | 17868,24 | 121,4% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5223,12 | 5533,09 | 94,4% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3553,02 | 3291,63 | 107,9% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1768,53 | 2271,20 | 77,9% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 19747,80 | 14284,91 | 138,2% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 22736,01 | 19864,51 | 114,5% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 20104,64 | 22570,12 | 89,1% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1099,36 | 925,90 | 118,7% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1896,12 | 1778,30 | 106,6% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 7907,63 | 5875,20 | 134,6% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1070,54 | 670,42 | 1,6 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 16416,46 | 11878,28 | 138,2% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6010,88 | 4193,62 | 143,3% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9459,39 | 8325,24 | 113,6% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 27674,49 | 24449,20 | 113,2% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 15785,81 | 16427,58 | 96,1% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 9622,01 | 8081,50 | 119,1% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 898,67 | 39,71 | 22,6 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 7503,53 | 7706,73 | 97,4% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1489,46 | 1811,45 | 82,2% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5039,99 | 2801,38 | 1,8 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4500,78 | 3791,80 | 118,7% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Götürək elə pambıqçılığı. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzi bəyan etmişdir ki, gələn il ölkə üzrə 104,9 min hektarda pambıq əkilməsi nəzərdə tutulur. Bu isə cari ildəkindən 27,6 min, 2017-ci ildəkindən 31,1 min hektar azdır. Əvəzində pambıq istehsalının artımı proqnozlaşdırılır, təbii ki, məhsuldarlıq hesabına. Biz bu yolla istehsalın artımını cari və keçən ilki nəticələri müqayisə edəndə də görürük. Belə ki, ötən il ölkə üzrə 136 min hektardan 207,5 min ton pambıq yığılmışsa, bu il 132,5 min hektardan son məlumata görə, 211,1 min ton məhsul tədarük edilmişdir. Amma bu, son rəqəm deyil, çünki yığım davam edir.

Söz ki, yığımdan düşdü, Dövlət Statistika Komitəsinin pambıq tədarükü üzrə noyabrın 20-nə olan növbəti məlumata nəzər salaq. Məlumata görə, qeyd olunan dövrədək ölkə üzrə 211 min 197,6 ton pambıq toplanmışdır ki, bu da ötən ilin eyni dövründəkindən 14,5 faiz və ya 36,7 min ton çoxdur. Toplanmış məhsulun həcminə görə yenə də 15,8 min hektardan 27, 6 min tonla Saatlı, 9,6 min hektardan 22,7 min tonla Bərdə, 10 min hektardan 21,6 min tonla Ağcabədi, 12 min hektardan 20,1 min tonla Biləsuvar, 9,5 min hektardan 19,7 min tonla Beyləqan, 13,6 min hektardan 16,4 min tonla İmişli, 13 min hektardan 15,7 min tonla Sabirabad rayonları irəlidədir. Onların ardınca Salyan (9,6 min ton), Neftçala (9,4 min ton), Goranboy (7,9 min ton), Tərtər (7,5 min ton), Kürdəmir (6 min ton), Ağdam (5,2 min ton), Yevlax (5,03 min ton) rayonları gəlir.

Göründüyü kimi, pambıq mövsümü davam edir. Bu isə o deməkdir ki, keçənilki nəticənin daha çox üstələnəcəyi, başqa sözlə desək, məhsuldarlığın ötən mövsümdəkindən daha yüksək olacağı şübhəsizdir.

***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsi rəisinin müavini Vahid Məmmədova atası

**ARİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İba Həsənov, Mütalib Şirinov, Aydın Məmmədov, Vahid Alışov, Akif Hacıyev, Rasim, Rafiq və Fikrət Hüseynovlar, Qəşəm Məmmədov və Şamo Mustafayev keçmiş iş yoldaşları

**ALMƏMMƏD ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

TuranBank ASC-nin Müşahidə Şurası və İdarə Heyəti bankın Müşahidə Şurasının üzvü Nazim Sadıqova əmisi

**HÜMBƏT ƏLİ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev Hacı Atakişi Atakişiyevə həyat yoldaşı

**ŞABİKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441



Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3468